AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 FEVRAL 2019-cu il ÇƏRŞƏNBƏ № 35 (6362) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

İstanbulda yaşayış binasının çökməsi və helikopter qəzası nəticəsində insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu facia ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 fevral 2019-cu il.**

## R.V.Həsənovun Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəvan Vaqif oğlu Həsənov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 fevral 2019-cu il.**

## Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Milli Elmlər Akademiyası onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 yanvar 2019-cu il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 yanvar 2019-cu il.**

# Prezident İlham Əliyevin Real televiziyasına müsahibəsi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də REAL televiziyasının rəhbəri Mirşahin Ağayevə geniş müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.*

**–Cənab Prezident, müsahibəyə vaxt ayırdığınız və bizi qəbul etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm və bunu biz Azərbaycan mətbuatına, mediasına Sizin diqqətiniz kimi qəbul edirik, təşəkkür edirəm.**

–Sağ olun. Siz bilirsiniz ki, mən Azərbaycan mediasına həmişə böyük dəstək göstərmişəm. Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır. Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm. Bu barədə mən bir neçə dəfə öz fikirlərimi bildirmişəm və hesab edirəm ki, gələcəkdə Azərbaycan mediası ölkəmizin həyatında bundan da böyük rol oynayacaqdır.

Onu da bildirməliyəm ki, bəzən belə bir sual verilir, nə üçün Prezident xarici mediaya daha çox müsahibə verir? Bunun iki səbəbi var. İstərdim ki, bu barədə də öz fikrimi bildirim, Azərbaycan mediası da bunu bilsin. Birincisi, bu gün Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq xüsusi əhəmiyyət daşıyan bir məsələdir. Çünki bu gün dünyada informasiya mübarizəsi gedir. Azərbaycana qarşı bir sıra hallarda çox əsassız ittihamlar irəli sürülür, qərəzli, saxta məlumatlar dərc edilir. Bunun məqsədi ölkəmizin imicinə zərbə vurmaq, ölkəmizi inkişaf, müstəqillik yolundan döndərmək və Azərbaycanı geridə qalmış ölkə kimi təqdim etməkdir. Ona görə xarici mediada bizim mövcudluğumuz, sözlərimizin çatdırılması xüsusi əhəmiyyət daşıyır. Yəni, bizə qarşı aparılan bütün bu təbliğatın qarşısında öz həqiqətlərimizi ortaya qoyuruq, Azərbaycanı müasir, güclü dövlət kimi tanıtdırırıq və ölkə haqqında həqiqətləri çatdırırıq. Bu, birinci səbəbdir. İkinci səbəb ondan ibarətdir ki, mən ölkə daxilində gedən işlərlə bağlı öz fikirlərimi müntəzəm olaraq müxtəlif formatda bildirirəm. Mənim çıxışlarımın bir çoxu hesabat xarakterlidir. Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantılarında həm görülmüş işlərə qiymət verilir və ən önəmlisi görüləcək işlər haqqında danışılır. Regional inkişaf proqramlarının icrası ilə bağlı tədbirdə il ərzində görüləcək işlər haqqında çox aydın ifadələr ortaya qoyulur. Beləliklə, Azərbaycan vətəndaşları həm məndən eşidirlər ki, hansı işlər görülüb, biz harada uğurlara nail olmuşuq, harada hələ ki, həll olunmamış problemlər, nöqsanlar var və həm də görüləcək işlərlə bağlı fikirlər ortaya qoyulur. Müxtəlif mövzularla bağlı müntəzəm olaraq öz fikirlərimi çatdırıram. Yenə də deyirəm ki, bu, həm hesabat xarakterli, həm də görüləcək işlər, istiqamətlərlə bağlı, istiqamətverici çıxışlardır. Ona görə bu məsələ ilə bağlı iki amil mövcuddur və istərdim ki, Azərbaycan mətbuatı bunu bilsin. Ancaq, eyni zamanda, bugünkü müsahibəmiz onu göstərir ki, mən həmişə Azərbaycan mətbuatına da açıq olmuşam, bundan sonra da belə olacaq.

**–Təşəkkür edirəm, cənab Prezident, biz bunu hiss edirik, qiymətləndiririk. Ümidvaram ki, bu ənənə davamlı olacaq.**

**Azərbaycanda 2019-cu il islahatların yeni və daha genişmiqyaslı dalğası ilə başlandı. Biz islahatların əhatə dairəsini və əsas hədəflərini mahiyyət etibarilə inqilabi adlandırırıq. Sizcə yanılmırıq ki?**

–Mən hesab edirəm ki, siz çox düzgün təhlil apararaq belə bir qənaətə gəlmisiniz. Doğrudan da, 2019-cu ildən bizim islahatlarımızın yeni mərhələsi başlayır. Bu da təbiidir. Çünki ötən il keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı mənə bir daha böyük etimad göstərib və mən bu seçkilərə islahatlar gündəliyi ilə getmişəm. Təbii ki, keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında çox geniş işlər aparılırdı və bu ilin əvvəlindən yeni islahatlara start verildi.

Onu da deməliyəm ki, Azərbaycanda islahatlar müntəzəm olaraq keçirilir. İslahatların əsasını ulu öndər Heydər Əliyev 1993-cü ildə qoymuşdur. Məhz o ildən başlayaraq Azərbaycan sabitlik və inkişaf dövrünə qədəm qoymuşdur. Əgər biz o illəri xatırlasaq görərik ki, ən böyük siyasi islahatlar məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, hakimiyyətə gələnə qədər Azərbaycanda senzura mövcud idi. Siz də o vaxt gənc jurnalist kimi bu senzura şəraitində fəaliyyət göstərirdiniz. Senzuranın ləğv edilməsi Heydər Əliyev tərəfindən aparılan çox ciddi islahat idi. Azərbaycana sərmayə qoyuluşunun, xarici sərmayə qoyuluşunun cəlb edilməsi işində çox böyük islahatlar aparıldı. “Əsrin müqaviləsi”, - o vaxt postsovet məkanında bunun tayıbərabəri yox idi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə bu islahatlar aparıldı. Torpaq islahatı, hansı ki, biz bu gün də onun qoyduğu yolla gedirik və Azərbaycanda fermerlər torpaq vergisi istisna olmaqla, heç bir başqa vergi vermirlər. Bilmirəm dünyanın hansı ölkəsində buna oxşar mənzərə var? İqtisadi islahatlar aparılmışdır.

2003-cü ildən islahatların yeni mərhələsi başlandı və hesab edirəm ki, o vaxt ən böyük islahat regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsi idi. Çünki bu proqram bizə imkan verdi ki, ölkəmizin müxtəlif istiqamətlər üzrə inkişaf strategiyasını müəyyənləşdirək və qısa müddət ərzində çox güclü infrastruktur bazasının yaradılması işində nəticələr əldə edək. Əgər həmin illəri xatırlayırsınızsa, o vaxt biz infrastruktur baxımından çox geridə idik. Elektrik enerjisi ilə bağlı böyük problemlər, fasilələr var idi, elektrik enerjisi saatlarla verilirdi. Bu gün Azərbaycan nəinki özünü təmin edir, eyni zamanda, böyük həcmdə elektrik enerjisini ixrac edir. Bölgələrdə qaz təchizatı yox idi. Bakı şəhərində qaz təchizatı təqribən, 50 faiz səviyyəsində idi. Bu gün ən ucqar rayonlara, hansılar ki, heç sovet vaxtında qazlaşdırılmamışdı, təbii qaz verilir və qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb. İçməli su layihələrinin icrası böyük əhəmiyyət daşıyır, böyük sosial məsələdir. 2003-cü ildə dayanıqlı və keyfiyyətli içməli su ilə təminat cəmi 20 faiz idi. Bu gün bu, 70 faizə çatıb. Düzdür, 70 faiz də bizi qane edə bilməz. Bakı şəhərində bu, 80 faizdən çoxdur. Ancaq bu, böyük bir islahat idi. Digər infrastruktur layihələrinə gəlincə, misal üçün, biz artıq bir neçə ildir ki, 5 milyon insana pulsuz tibbi müayinə xidməti göstəririk. Bu, nəyə görə mümkün olub? Ona görə ki, son illərdə ölkəmizin hər bir yerində müasir xəstəxanalar, diaqnostika mərkəzləri yaradılıb. Yəni, bu imkan yaradılıb ki, biz indi ondan istifadə edək. İqtisadi sahədə aparılmış islahatlar, ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı islahatlar bu yeni reallıqları ortaya qoydu.

Biz birinci dəfə Dünya Bankının “Doing Business” hesabatına 2006-cı ildə düşmüşük. O vaxt biz təqribən, 90-cı, 95-ci və ya 96-cı yerdə idik. Bu gün biz 25-ci yerdəyik. Bu, ciddi islahatdır. Bu, biznes mühitinin yaxşılaşdırılması, sərmayə qoyuluşu üçün yeni imkanların yaradılması istiqamətində inqilabi islahatdır. Baxın, biz bir çox inkişaf etmiş ölkələrdən öndəyik. Bu, çox ciddi məsələdir. Ona görə islahatların bugünkü mərhələsi əvvəlki dövrlərdə aparılmış islahatların məntiqi nəticəsidir. Bu gün isə qarşımızda yeni vəzifələr durur, yeni çağırışlar dayanır. Dünya dəyişir, dünyada gedən proseslər narahatlıq doğurur. Beynəlxalq hüquq prinsipləri artıq belə görünür ki, o qədər də böyük rol oynamır. Ona görə, hər bir ölkə çalışmalıdır ki, maksimum öz daxili resurslarına arxalansın. Əslində, biz bu siyasəti uzun illərdir ki, aparırdıq. Əsas hədəf ondan ibarət idi ki, biz iqtisadi cəhətdən heç kimdən asılı olmayaq. Biz iqtisadi müstəqilliyi əldə edəndən sonra əlbəttə ki, öz siyasi addımlarımızı daha inamla atırıq və ölkəmizin maraqlarını daha böyük dərəcədə qoruyuruq.

Ona görə 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib. Yəni, nəqliyyat mərkəzlərindən birinə yox, məhz nəqliyyat mərkəzinə çevrilib. Çünki Şimal-Cənub və Şərq-Qərb dəhlizləri ölkəmizin ərazisindən keçir. Biz bu coğrafi vəziyyətdən çox səmərəli istifadə etdik, güclü infrastruktur yaratdıq. Bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində 10-dan çox ölkə əməkdaşlıq edir. Yalnız bir ölkə hər iki layihədə iştirak edir ki, o da Azərbaycandır.

Yəni, bugünkü reallıqlar, dünyada baş verən və bölgəmizdə yaşanan hadisələr diktə edir ki, biz daha səmərəli iş aparmalıyıq və şəffaflıq əsas prinsip olmalıdır. Deyə bilərəm ki, keçən il hazırlanan və bu il başlanan, xüsusilə iqtisadi, sosial və kənd təsərrüfatı sahələrində aparılan islahatlar imkan verir ki, biz əlavə maliyyə resursları əldə edək. Siz bilirsiniz ki, bu yaxınlarda minimum əməkhaqqının qaldırılması ilə bağlı çox ciddi addım atılmışdır, digər sosialyönümlü addımlar atılmışdır. Biz nəyin hesabına buna nail ola bilmişik? Ona görə ki, bu ilin birinci ayında biz əlavə gəlirlər əldə etdik. Gəlirlər məhz şəffaflıq, düzgün yanaşma hesabına əldə olundu. Bu gəlirlər bizə əlavə maliyyə resurslarının yaranmasına imkan verdi. Biz bu maliyyə resursunu müxtəlif istiqamətlərə - ehtiyatların artırılmasına, infrastruktur layihələrinin icrasına yönəldə bilərdik. Amma mən qərar verdim ki, əldə edilmiş bu əlavə maliyyə resursları, ilk növbədə, vətəndaşların rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu da etdik. Güclü sosial siyasət bizim gündəliyimizdə bundan sonra da ən vacib, ən ümdə məsələlərdən biri olaraq qalacaqdır.

**–Şəhid ailələri, təqaüdçülər, aztəminatlı ailələr, yığcam şəkildə desək, islahatların mərkəzində sadə azərbaycanlılar dayanır. Özü də mən burada heç də yalnız şəhid varəsələrinə verilən birdəfəlik müavinətləri, minimum əməkhaqqının, təqaüdlərin artırılmasını nəzərdə tutmuram. Mənə elə gəlir ki, söhbət daha dərin, daha böyük mətləbdən gedir. Söhbət vətəndaş-dövlət təmasının yeni formatına keçiddən gedir.**

–Tamamilə haqlısınız. Əlbəttə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq. Son illər bu istiqamətdə çox böyük işlər görülmüşdür. Baxın, köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir. Yəni, mən bilmirəm, hansı başqa ölkədə buna rast gəlinir. Mən bilirəm ki, bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm, hansı ölkədə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilmişdir. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni, bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır. Eyni zamanda, dediyiniz kimi, bu yanaşma daha böyük yanaşmanın tərkib hissəsidir - dövlət-vətəndaş münasibətlərinin. Hesab edirəm ki, bu münasibətlər Azərbaycanda sağlam zəmində qurulub. Vətəndaş bu gün bilir ki, dövlət güclü olarsa, onun da həyatı təhlükəsiz olar, risksiz olar, rahat olar və ildən-ilə artan maddi rifah daha da çoxalar.

Eyni zamanda, Azərbaycan vətəndaşı çox yaxşı bilir ki, biz hələ müstəqilliyimizin ilk illərindəyik. Bizim müstəqilliyimizin cəmi 27 yaşı var. Ona görə hər bir vətəndaş öz işi, əməyi, dövlətə olan sədaqəti ilə dövlət müstəqilliyini möhkəmləndirməlidir. Hesab edirəm ki, Azərbaycan bu sahədə də nümunəvi ölkədir. Çünki Azərbaycanda vətənpərvərlik hissləri, dövlətçiliyə bağlılıq çox yüksək səviyyədədir. Ona görə vətəndaş dövlət qarşısında öz vəzifə borcunu yerinə yetirir və yetirməlidir. Eyni zamanda, dövlət də həmişə vətəndaşın yanında olmalıdır. Yəni, bizim prinsiplərimiz bundan ibarətdir və dövlət ən ağır vəziyyətdə olan vətəndaşın yanında olmalıdır. Gətirdiyim misallar buna əyani sübutdur.

Bütün çətin anlarda dövlət vətəndaşın yanındadır. Təbii fəlakət baş verdiyi zaman dövlət vətəndaşın yanındadır. Bu yaxınlarda Şamaxıda zəlzələ baş verdi. İlk növbədə, dövlət qurumları mənim tapşırığımla öz dəstəyini göstərirlər və göstərəcəklər. Bundan əvvəl şimal-qərb bölgəsində bundan daha böyük zəlzələ olmuşdur. Daşqın olmuşdur, minlərlə sakin evsiz-eşiksiz qalmışdır. İnkişaf etmiş ölkələrdə belə olan hallarda nə baş verir? Vətəndaş hansı ki, öz evini sığortalayıb, gedir sığorta şirkətindən uzun prosesdən sonra pulunu alır, - əgər ala bilsə, - və o pulla özü üçün yeni ev tikir.



**(davamı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevin Real televiziyasına müsahibəsi

(əvvəli 1-ci səhifədə)

Yəni, aylarla, bəlkə də illərlə vətəndaş öz məişət problemini həll edə bilmir. Azərbaycanda nələr baş verir?! Dərhal bütün dövlət qurumları səfərbər olunur, dövlət maliyyə vəsaiti ayırır və evini itirmiş vətəndaşa dövlət xətti ilə ev tikilir. Hansı başqa ölkədə bunlar var?! Bunu deməklə mən öyünmək istəmirəm, sadəcə olaraq, həqiqətləri demək istəyirəm.

Dövlət-vətəndaş münasibətləri sağlam zəmində qurulub. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq. Dövlət isə tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasında olacaq.

**–Şamaxıya gedəndə 92 yaşlı Saray nənə ilə görüşdük. Deyim, cənab Prezident, o, bu saat da Sizinlə görüşün təəssüratları altındadır.**

–Saray nənəni xatırlatdınız. Hesab edirəm ki, Saray nənə Azərbaycan qadınının ən yüksək keyfiyyətlərini özündə təcəssüm etdirir. Saray nənə kimi nənələr, analar bizim milli-mənəvi dəyərlərimizi əsrlər boyu qoruyan insanlar olublar. Hər bir Azərbaycan qadını Saray nənəyə oxşamaq istəyir. Məncə, bu, belədir. Baxın, evi dağılmış 92 yaşında bir qadın, bu adamda nə qədər nikbinlik var. Çünki Saray nənədə inam var ki, dövlət onun yanında olacaq. Sözün düzü, mən Şamaxıya gedəndə bilmirdim ki, Saray nənə ilə rastlaşacağam. Mən gedib zəlzələdən ziyan çəkmiş evlərə baxırdım, oradakı vəziyyətlə tanış olurdum. Saray nənəni görəndə mən bir daha əmin oldum ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Biz xalqımızla fəxr edə bilərik. Ən ağır vəziyyətdə, evi uçub. Sözün düzü, yəqin heç bilmirdi ki, kimsə onun köməyinə gələcək, ya gəlməyəcək. Onun evi təmir olunacaq, ya olunmayacaq, yeni ev tikiləcək, yoxsa yox. Amma bu insanda nə qədər inam, nikbinlik, xeyirxahlıq var. Saray nənə kimi nənələr Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Biz əsrlər boyu yaşayan bir xalq, bir millət, inkişaf edən bir millət olaraq Saray nənə kimi nənələrə borcluyuq. Ona görə bu görüş məndə də çox böyük təəssürat yaratdı, böyük bir iz buraxdı. Ümid edirəm ki, tezliklə Saray nənə ilə bir daha görüşəcəyəm və onun yeni evinin açarını ona təqdim edəcəyəm.

**–Biz artıq məzmunca yeni bir Azərbaycanda yaşadığımızın fərqindəyik. Xeyli köhnə vərdişlər var idi ki, onlardan qurtulmuşuq. "ASAN xidmət"in təsiri ilə başlanan yeni həyat tərzinə, müasir, halal, şəffaf dövlətdə yaşamağa artıq öyrəşmişik. İslahatların yeni qanadı da bizdən təfəkkür mödelimizi tamam dəyişməyi tələb edir. Yəni, köhnə təfəkkür artıq bugünkü Azərbaycana yaramır. Son nəticədə hədəfiniz nədir?**

–Əlbəttə ki, bugünkü Azərbaycan əvvəlki Azərbaycandan çox fərqlənir. Bugünkü Azərbaycan müasir dövlət kimi özünü artıq təsdiqləyib. Ölkədə aparılan islahatlar bizim niyyətimizi, siyasətimizi əks etdirir. Siz "ASAN xidmət"i yada saldınız. "ASAN xidmət" əslində ictimai xidmətlər sahəsində böyük bir inqilabdır. "ASAN xidmət"in əhəmiyyətini bəlkə də bu gün biz tam dərk etmirik. Yəni, bu, sadəcə olaraq, vətəndaşlara gözəl, rahat xidmət mərkəzi deyil. Bu, insanlarda böyük dərəcədə dəyişikliklərə gətirib çıxardı.

"ASAN xidmət" mənim təşəbbüsümlə yaradıldı. Ancaq onu da bildirməliyəm ki, orada çalışan gənclər "ASAN xidmət"i çox böyük dərəcədə inkişaf etdirdilər, zənginləşdirdilər, yeni, kreativ ideyaları ilə "ASAN xidmət"i doğrudan da nadir bir ictimai xidmət mərkəzinə çevirdilər. Hər bir yeni mərkəzə gedəndə, - mən 15 mərkəzin açılışının hər birində olmuşam, - görmüşəm ki, edilən təqdimatlarda hansısa bir yenilik var. Yəni, bu, onu göstərir ki, orada çalışan insanlar, - onların mütləq əksəriyyəti gənclərdir, - çox böyük həvəslə, böyük sevgi ilə bunu edirlər. Onlarda böyük ruh yüksəkliyi var. Onlar istəyirlər ki, ölkəmizdə işlər daha yaxşı getsin, istəyirlər ki, bu işlərə öz töhfələrini versinlər. Yəni, "ASAN xidmət" çox geniş və müsbət bir təşəbbüsün təzahürüdür. Orada işləyən gənclər bizim gələcəyimizdir. "ASAN xidmət"də korrupsiya, rüşvətxorluq, kobudluq, bürokratiya sıfırdır. Yəni, mənfi halların qarşısını almaq mümkündür. Bunu biz özümüz etmişik. Hansısa heç bir xarici təşkilat bunu bizə tövsiyə etməmişdir. Qərar da bizimdir, icraçılar da Azərbaycan vətəndaşlarıdır, gənclərdir və nəticəni də Azərbaycan vətəndaşları görürlər. Ona görə bu, ictimai davranış sahəsində, ictimai xidmətlər sahəsində, məmur-vətəndaş münasibətlərində inqilabdır. Sirr deyildir ki, "ASAN xidmət"ə qədər bizim vətəndaşlar hər hansı bir arayışı almaq üçün nə qədər böyük əziyyət çəkirdilər. Günlərlə, bəlkə həftələrlə vaxt itirirdilər, digər xoşagəlməz hallarla üzləşirdilər. İndi biz bunu bacardıq, bu, artıq keçmişdə qaldı. "ASAN xidmət"də təlim keçmiş 17 min könüllü tam yeni təfəkkürlü insanlardır. Onların amalı vətəndaşlara xidmət etməkdir, özü də təmənnasız. Gələcəkdə bu könüllülər, - artıq onların bir çoxu indi müxtəlif təşkilatlarda işləyirlər, - vətəndaşlarla təmasda tam yeni bir mövqe, tam yeni bir yanaşma nümayiş etdirəcəklər.

Mən demişəm ki, hər bir dövlət məmuru vətəndaşların xidmətçisidir - Prezidentdən tutmuş aşağı səviyyəli məmura qədər. "ASAN Könüllüləri" bax, bu prinsiplərlə yaşayırlar. Ona görə bu, böyük bir hərəkatdır. Məhz buna görə bu il 5 yeni "ASAN xidmət" mərkəzi açılacaq. "ASAN xidmət" mərkəzlərində xidmətlərin sayı da gündən-günə artır, 200-dən çox xidmət göstərilir. Əlbəttə ki, bu, çox qürurverici bir məsələdir.

O ki qaldı, "hədəfimiz nədir" sualınıza, deməliyəm ki, hədəfimiz qüdrətli, müasir dövlət qurmaqdır. Hədəfimiz xoşagəlməz hallara qarşı siyasətimizi bundan sonra da aparmaqdır. Burada mübarizənin bir neçə istiqaməti var, həm inzibati yollar, həm də institusional. Yəni, sistem xarakterli islahatlar. İndi "ASAN xidmət" elə qurulub ki, artıq bu sistem müstəqil formada yaşayır. Gələcəkdə orada çalışacaq vətəndaşlar bu prinsiplərə əməl edəcəklər. Əsas məsələ, əsas hədəf güclü, müasir dövlət qurmaqdır ki, vətəndaşlar özlərini rahat hiss etsinlər, dövlət məmurları vətəndaşlara təmənnasız və sədaqətlə xidmət göstərsinlər.

**–Cənab Prezident, 1992-ci ildə Əbülfəz Elçibəy haqqında belə bir söz demişdim: "Zəif Prezident, əliboş komandan". Mənim qarşımda indi güclü Prezident və gerçək Ali Baş Komandan var. Elə bilirəm ki, buradan Dağlıq Qarabağ ətrafındakı vəziyyət mövzusuna keçək. Həm də ona görə ki, bizim ortada 2016-cı ilin Aprel rəşadəti, 2018-ci ilin Naxçıvan uğurları var və elə gizlətməyək, 2019-cu ildən də uğurlar gözləyənlərimiz var, mən daxil olmaqla. Nəyə əsaslanırıq?**

–Bilirsiniz, mən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, tam əminəm, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycan Prezidenti olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Tam əminliklə bunu deyirəm. Əfsuslar olsun ki, o vaxt Azərbaycana rəhbərlik etmiş şəxslər öz məsuliyyətini dərk edə, ölkəmizin maraqlarını qoruya bilməmişlər. Xüsusilə 1992-ci ildə baş vermiş çevriliş nəticəsində hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü və onun xəyanətkar siyasəti işğalı şərtləndirən əsas amil olmuşdur. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi və çevriliş ərəfəsində Şuşa, Laçın işğal altına düşmüşdü. Çevrilişdən bir il keçmədən - 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdü və beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yarandı. Heydər Əliyev buna heç vaxt imkan verməzdi. Çünki onun siyasəti, onun qətiyyəti, xalqın ona olan inamı heç vaxt imkan verə bilməzdi ki, bizim torpaqlarımız işğal altına düşsün. Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğalı, bir milyondan artıq qaçqın, köçkünün ağır vəziyyəti AXC-Müsavat cütlüyünün ağır mirasıdır. Bu gün Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir. Biz son illər ərzində münaqişənin həlli üçün güclü hüquqi baza yaratdıq. Dünyanın bir çox mötəbər aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı həqiqəti əks etdirən, bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər - BMT-nin Baş Assambleyası, ondan əvvəl Təhlükəsizlik Şurası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ərazi bütövlüyümüz, suverenliyimiz, sərhədlərimizin toxunulmazlığı haqqında dəstək ifadə olunub. Yəni, bu, münaqişə üçün hüquqi baza yaradır. Hüquqi baza ondan ibarətdir ki, Dağlıq Qarabağ, - bunu biz hamımız yaxşı bilirik, - Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişənin həlli yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür.

Eyni zamanda, biz güclü iqtisadi potensial yaradaraq güclü ordu da yaratmışıq. Bu gün Azərbaycan Ordusu dünyada güclü ordular sırasındadır. Bizim döyüş qabiliyyətimiz, imkanlarımız artır. Biz ordumuzu ən müasir texnika ilə təchiz edirik. Aprel döyüşləri bizim gücümüzü göstərdi. Ən əlverişsiz hərbi mövqelərdən əks-hücum əməliyyatı apararaq biz strateji yüksəklikləri əldə etdik. Torpaqlarımızı işğalçılardan azad etdik. Bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Mən Lələtəpədə olanda, orada Azərbaycan bayrağını görəndə qürur hissi keçirirəm. Hər biz Azərbaycan vətəndaşı qürur hissi keçirir. Bizim əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərmişlər. Aprel döyüşləri tarixi hadisədir. Bu döyüşlər Ermənistanın uzun illər ərzində yaratdığı mifi tamamilə darmadağın etdi. Yəni, ermənilər elə bir rəy formalaşdırmağa çalışırdılar ki, guya onların ordusu güclüdür və yenilməzdir. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kimin ordusu güclüdür, kimin ordusu yenilməzdir. O mif tamamilə dağıdıldı. Aprel döyüşləri milli ruhumuzu yüksəltdi, zirvələrə qaldırdı. Ona görə bu hadisə bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq.

Aprel döyüşlərindən iki il sonra uğurlu Naxçıvan əməliyyatı keçirildi. O, taktiki baxımdan fərqli əməliyyat idi, ancaq nəticə etibarilə çox uğurlu idi və bizə imkan verdi ki, strateji yüksəklikləri, dağları tam nəzarətə götürək və bu dağlardan düşmənin strateji kommunikasiyalarına nəzarət edək. Yəni, bütün bunlar ordumuzun qüdrətini, peşəkarlığını əks etdirən önəmli hadisələrdir. Bütün bunlar onu göstərir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Bildiyiniz kimi, Ermənistanın yeni hökuməti birinci mərhələdə çox ziddiyyətli bəyanatlar verirdi ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz əlbəttə ki, bu ziddiyyətli və anlaşılmaz bəyanatları dərhal rədd etdik. O cümlədən vasitəçilər də əlbəttə ki, belə bir mövqe ilə razılaşa bilməzdilər. Öz prinsipial mövqeyimizdə qalaraq biz danışıqlar prosesinə sadiqik. Bu gün danışıqlar Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında aparılır. Artıq bir neçə raund danışıqlar aparılıb. Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır. Ona görə danışıqların aparılması əlbəttə ki, müsbət hal kimi qiymətləndirilə bilər. Bu, bir daha onu göstərir ki, Ermənistanın yeni rəhbərliyinin ilk mərhələdə bəyan etdiyi prinsiplər tamamilə qəbuledilməzdir.

Digər tərəfdən, mən həmişə demişəm ki, bu gün dünyada güc amili ön plana çıxır. Baxın, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq kobudcasına pozulur. Əgər əvvəlki dövrlərdə bunu müəyyən formada gizlətmək istəyirdilərsə, bu gün heç buna ehtiyac da görmürlər. Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür. Bu, yeni reallıqdır. Biz bu reallığa hazır olmalıyıq. Dünya dəyişir və biz bu dəyişikliyə hazır olmalıyıq. Xoşbəxtlikdən biz öz iqtisadi və hərbi gücümüzü uzun illərdir ki, artırırıq. Sanki özümüzü bugünkü vəziyyətə hazırlayırdıq və bu gün biz hazırıq. Ona görə güc amili həmişə gündəlikdə olub və olacaq. Biz bunu nəinki bizim münaqişə, bir çox başqa münaqişələrlə bağlı da görürük. Ona görə biz müxtəlif imkanlardan istifadə edəcəyik və Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir. Azərbaycan vətəndaşları bunu bilməlidirlər ki, bu, hər bir vətəndaşın əsas vəzifəsidir, dövlətin əsas vəzifəsidir. Biz bu istiqamət üzrə öz siyasətimizi bundan sonra da aparacağıq.

**–1990-cı illərdə yəqin ki, Azərbaycanı hətta turistin gözündən gizlətmək lazım idi ki, gəlib görməsinlər. Amma indi vəziyyət o dərəcədə dəyişib ki, gəlsinlər də, görsünlər də. Belə olanda kosmik kluba üzvlüyümüzün də təbii ki, əsası məntiqli olur, təbii ki, Formula 1 yarışlarının Bakının küçələrində keçirilməsi də əsaslı olur. Bir zamanlar Siz deyəndə ki, Azərbaycanda beşulduzlu, yeddiulduzlu otellər tikilməlidir, bəlkə də bunlara bir az anlaşılmaz, hətta mümkün olmayan bir şey kimi baxırdılar. Amma bu gün görürük ki, belə otellərin sayı azlıq edir, artırmaq lazımdır. Belə deyək, qonaqlarımızın ölkəmizə xoş gəlib, səfa gətirmələrindən ötrü daha nələri etmək niyyətindəsiniz, cənab Prezident?**

–Bilirsiniz, turizm hər bir ölkə üçün çox önəmli bir sahədir. Elə ölkələr var ki, onların ümumi daxili məhsulunda əsas hissə turizmlə bağlıdır. Biz də çalışırıq ki, Azərbaycanın turizm imkanlarını genişləndirək və bu istiqamətdə müxtəlif addımlar atırıq. İlk növbədə, əlbəttə ki, infrastruktur yaradılmalı idi. Əgər infrastruktur yoxdursa, heç bir turist buraya gəlməz. Azərbaycanda hazırda altı beynəlxalq hava limanı fəaliyyət göstərir. Gözəl yollar, dəmir yolları, xidmət infrastrukturu, otellər, ictimai yerlər yaradılmalı idi. Əlbəttə ki, hər bir turist üçün təhlükəsizlik məsələləri, xüsusilə indiki zəmanədə ön plandadır. Azərbaycan dünyanın bəlkə də ən təhlükəsiz ölkələrindən biridir. Xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, gözəl şərait. Bütün bunlar turizmin inkişafı üçün əsas şərtlər idi ki, biz bunları yaratdıq. İkinci məsələ ondan ibarət idi ki, biz turistləri necə cəlb edək, Azərbaycanı dünyaya necə təqdim edək. Burada xüsusi rol oynayan Azərbaycanda keçirilmiş beynəlxalq tədbirlər idi. Avropa Oyunları. 2015-ci ildə keçirilmiş Avropa Oyunlarından sonra və 2016-cı ildə keçirilmiş birinci Formula 1 yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. Yaxşı, nəyə görə bu vaxta qədər artmırdı. Bu vaxta qədər də biz turistləri cəlb etmək üçün səylər göstərirdik. Məhz Avropa Oyunları, Formula 1 yarışları turistlərin sayını 22 faiz qaldırdı. Ondan sonra - 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Biz gördük ki, müsəlman ölkələrindən gələn turistlərin sayı kəskin artdı. Bəzi ölkələrdən 3-4 dəfə. Yəni, bu Oyunların da çox böyük təsiri oldu. 2017-ci ildə turistlərin sayı 20 faiz artdı. Amma o 22 faizin üstündə olan rəqəmdir. Təsəvvür edin nə qədər. Deməli, keçən il 6 faiz artdı. Artım böyük deyil, amma artıq baza yüksəkdir. Bu ilin yanvar ayında yenə də artır. Təkcə Formula 1 yarışı birbaşa ölkəmizə, ölkəmizin xidmət sektoruna təxminən 300 milyon dollara yaxın vəsaitin daxil olmasına şərait yaratdı. Yarım milyard auditoriyası olan bu yarış əlbəttə ki, Azərbaycan üçün çox böyük fayda gətirir. Bu yarışlar 21 şəhərdə keçirilir. Əgər bu yarışlar səmərəsizdirsə, əgər bu yarışlar iqtisadi itkilərə gətirirsə, inkişaf etmiş şəhərlərdə bu yarışlar keçirilərdimi? Əlbəttə ki, yox.

Biz xidmət sektorunda bundan çox böyük xeyir götürürük. Azərbaycanı dünyada tanıtmaq üçün bunun çox böyük əhəmiyyəti var. Turizm ixracın bir növüdür. Mən bir müqayisə gətirim sizin üçün. Keçən il kənd təsərrüfatı məhsullarının ixracından Azərbaycan turizmdən gələn vəsaitdən daha az vəsait əldə etdi. Yəni, turizm ixrac növüdür. Keçən il Azərbaycana turizmdən iki milyard dollar vəsait daxil oldu. Bu vəsait vətəndaşlara, xidmət sektoruna, vergilərə və ümumi inkişafa xidmət göstərir. Ona görə biz qabaqcıl ölkələrin təcrübəsini öyrənirik və çalışırıq ki, Azərbaycanda turizm sənayesi daha da sürətlə inkişaf etsin. Keçən il ölkəmizə 2 milyon 800 min xarici qonaq gəlmişdi. Bu il daha çox gələcək. Bu, bizim iqtisadi inkişafımızın çox önəmli istiqamətidir.

**–Mən istəyirəm Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışınıza toxunaq. Ona görə ki, bu, sadəcə, çıxış deyildi, bu, Azərbaycan gəncləri üçün dövlət başçısının elan etdiyi platforma idi. Ümumiyyətlə, kadr siyasətinizdə gənclərə verilən xüsusi önəm də diqqət mərkəzindədir. Bütün bunları nəzərə alaraq, Sizin gənclərlə bağlı xəttinizi təxminən belə elan etmək olarmı ki, müstəqil dövlət üçün sağlam, kreativ və güclü gənclik?**

–Bəli, bu forum çox möhtəşəm bir tədbir idi. Orada toplaşmış 3500 gənc öz iradəsini, dövlətə olan sədaqətini göstərdi. Forum məndə çox böyük təəssürat yaratdı. Yəni, mənə çox böyük, gözəl təəssürat bağışladı. Bir daha gördüm ki, Azərbaycan gəncləri dövlətə, Vətənə nə qədər sədaqətlidir, nə qədər cəsarətlidir, nə qədər biliklidirlər. Gənclərin gələcəkdə həyatda layiqli yerini tutmaları üçün bu gün Azərbaycanda bütün şərait var. Gənclər üçün imkanlar açılır, gənclər dövlət işinə dəvət olunurlar. Mən göstəriş vermişəm ki, Azərbaycanın müxtəlif təşkilatları, dövlət qurumları könüllüləri işə cəlb etsinlər. Yəni, təkcə "ASAN"da yox, başqa qurumlarda, indi Aqrar Könüllülər Təşkilatı yaradıldı. Hesab edirəm ki, bizim bütün dövlət təşkilatlarında könüllülər fəaliyyət göstərməlidirlər, təcrübə qazanmalıdırlar və özlərini gələcəyə hazırlamalıdırlar.

Mən çıxışımda gənclərə öz sözümü dedim. Dedim ki, əlbəttə, bilikli, savadlı olmalıdırlar. Çünki hər bir ölkənin inkişafı vətəndaşların intellektual səviyyəsindən asılıdır, təbii sərvətlərdən yox, hansısa başqa qaynaqlardan yox, məhz intellektual səviyyədən. Baxın, inkişaf etmiş ölkələrin təcrübəsinə. Onlar nəyin hesabına inkişaf ediblər? Texnologiyaların, innovasiyaların, biliyin, savadın. Ona görə Azərbaycan gəncləri də mütləq bilikli, savadlı olmalıdırlar. Eyni zamanda, mən forumda da bunu dedim, gənclərimiz milli ruhda tərbiyə almalıdırlar. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli mənliyimizi qorumuşuq. Halbuki bu, çətin idi. Nəyin hesabına? İlk növbədə, ona görə ki, biz həmişə milli-mənəvi dəyərlərə sadiq olmuşuq, həmişə Azərbaycan dəyərlərini qorumuşuq. Bunu əsrlər boyu ən əlverişsiz mühitdə qorumuşuq, bu gün də qorumalıyıq. Bunu qoruyan nəsillərdir - yaşlı nəsil, gənc nəsil. Bu gün biz bunu qoruyuruq və Azərbaycanın müstəqilliyinin, xalqımızın milli maraqlarının keşiyində durmuşuq. Bax, bu gün yetişən gənclər gələcəkdə eyni addımları atmalıdırlar. Bunu etmək üçün onlarda milli təfəkkür, milli düşüncə, milli ruh olmalıdır. Biz çalışırıq gəncləri bu istiqamətə yönləndirək ki, onlar böyüyəndə həmişə Azərbaycanın dövlət müstəqilliyinin keşiyində dursunlar. Ona görə hesab edirəm ki, bilik, savad, müasirlik, vətənpərvərlik, milli ruh gənclərimizin əsas prinsipləri olmalıdır. Mən şadam ki, Azərbaycan gəncləri məhz bu meyarlara cavab verirlər.

**–Forumda Sizin çıxışınızdan bir sitat gətirmək istəyirəm. Mənə elə gəlir ki, bu, yeni redaksiyada təqdimat idi: "Bəzən bizim xarici siyasətimizi tarazlaşdırılmış siyasət kimi qələmə verirlər. Ancaq mən hesab edirəm ki, bizim xarici siyasətimiz milli maraqlar üzərində qurulub". Bu bəyanatınızı bir az açıqlamağınızı xahiş edirəm.**

–Bəli, bu açıqlama təsadüfən verilmədi. Çünki yenə də deyirəm, bəzi xarici mətbu orqanlarda, ekspert cəmiyyətlərində belə bir fikir söylənilir ki, Azərbaycan balanslaşdırılmış, tarazlaşdırılmış siyasət aparır və elə bil ki, bu regionda balans axtarır. Bu, belə deyil. Biz balans axtarmırıq. Biz, sadəcə olaraq, xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Deyə bilərəm ki, buna müvəffəq olmuşuq.

Biz bu coğrafiyada, bu regionda yaşayırıq. Əlbəttə ki, qonşularla əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır, hər bir ölkə üçün. Mən hesab edirəm ki, hər bir ölkə istəyər ki, onun qonşuluğunda dost bir ölkə olsun. Biz son illər ərzində bütün qonşularla, - təbii ki, Ermənistan istisna olmaqla, - dostluq münasibətlərimizi daha da gücləndirmişik, yeni səviyyəyə qaldırmışıq. Həm ikitərəfli formatda, həm də bizim təşəbbüsümüzlə qonşularla artıq üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatı mövcuddur. Onu da bildirməliyəm ki, bunun təşəbbüskarı da Azərbaycandır.

Qonşularla yaxşı münasibətlər olmadan biz enerji, nəqliyyat layihələrimizi icra edə bilərdikmi? Əlbəttə ki, yox. Mən qeyd etdim ki, bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib. Biz qonşularsız buna nail ola bilərdikmi? Əlbəttə ki, yox. Nəinki yaxın qonşularımızla, biz daha böyük coğrafiyanı əhatə edən əməkdaşlıq formatı yaradırıq. Məhz bu əməkdaşlıq formatı imkan verir ki, biz öz nəhəng, transmilli layihələrimizi uğurla və vaxtında icra edək. Ona görə bu, bizim üçün strateji əhəmiyyət daşıyan bir yanaşmadır. Mən şadam ki, bu gün qonşularımızla bizim əlaqələrimiz dostluq, mehriban qonşuluq, əməkdaşlıq üzərində qurulub və bu əməkdaşlığın çox böyük gələcəyi var.

Eyni zamanda, Azərbaycan müsəlman aləminin bir parçasıdır. Müsəlman ölkələri ilə əlaqələr bizim üçün xüsusi əhəmiyyət daşıyır. Onu da bildirməliyəm ki, beynəlxalq təşkilatlarda bizi ən çox dəstəkləyən müsəlman ölkələridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox müsbət rol oynayır və bu rol yüksək qiymətləndirilir. Bilirsiniz, müsəlman aləmində bəzi ölkələr bir-biri ilə hələ ki, lazımi səviyyədə, yumşaq desək, əlaqələr qura bilməmişlər. Ancaq Azərbaycan bu ziddiyyətlərin azaldılmasında öz rolunu oynayır və bu rol yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri Azərbaycanın rolunu çox yüksək qiymətləndirirlər. Biz İslam həmrəyliyinin güclənməsinə böyük töhfə veririk. Bakıda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, sadəcə, bir idman yarışı deyildi. Bu, bütün müsəlman ölkələrinin gənclərini, idmançılarını bir araya gətirən dostluq, həmrəylik bayramı idi. Bu Oyunların yüksək səviyyədə keçirilməsi əlbəttə ki, müsəlman aləmində bizim rolumuzu daha da gücləndirdi. Ona görə xarici siyasətimizin önəmli istiqaməti müsəlman ölkələri ilə əməkdaşlıqla bağlıdır.

Eyni zamanda, Azərbaycan Avropa İttifaqı ilə sıx əlaqələr qurub. Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb - Avropa İttifaqının üçdəbir hissəsi ilə. Keçən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb. Bu, çox ciddi sənəddir, bir çox məsələləri əhatə edir, o cümlədən münaqişə ilə bağlı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında açıq-aydın dəstək göstərilir. Bu, böyük diplomatik uğurumuzdur. Bu, xarici siyasətimizin əsas istiqamətləridir.

Biz Qoşulmama Hərəkatının üzvüyük. Bir neçə il bundan əvvəl üzv olmuşuq. Amma dərhal Qoşulmama Hərəkatı, - BMT-dən sonra ikinci böyük təşkilatdır, - münaqişə ilə bağlı çox ədalətli qətnamə qəbul etmişdir. Biz Qoşulmama Hərəkatına sədrlik edəcəyik. Yəni, bizim beynəlxalq nüfuzumuz artır. Biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də çox çətin bir mübarizədə. On altı turdan sonra biz buna nail ola bilmişik. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, bizə inam, rəğbət var, bizim müstəqil siyasətimizə dəstək var. Bu gün Azərbaycan dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Tərəfdaşlar bilirlər ki, bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri var. Ona görə hesab edirəm ki, xarici siyasətlə bağlı aparılan işlər təqdirəlayiqdir. Xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Ümid edirəm ki, bundan sonra da biz bu istiqamətdə uğurlar yolu ilə gedəcəyik.

**–Elə məntiqi davam olaraq mən Azərbaycanın daxili siyasəti barədə də soruşmaq istəyirəm, cənab Prezident. Nəinki Qafqazda, MDB-də, Avropada, hətta mən dünyada Azərbaycan kimi ikinci sabit, əmin-aman bir ölkə tanımıram ki, orada dinlər və dillər, dünyanın bütün dinləri və dilləri normal ünsiyyətdə olsunlar. Buna necə nail olursunuz?**

–Bilirsiniz, yəqin ki, bunun da bir çox səbəbləri var. Xüsusilə son illər ərzində dünyada, bizim regionumuzda, MDB məkanında, Yaxın Şərqdə, Avropada vəziyyət gərginləşir. Biz bunu gündəlik formatda televiziyadan başqa, kütləvi informasiya vasitələrindən görürük, izləyirik. Münaqişələr, qanlı toqquşmalar, müharibələr alovlanır, milyonlarla yeni köçkün dalğası yaranır. Ölkələr arasında ziddiyyətlər kəskinləşir, müttəfiqlər arasında münasibətlər pozulur. Yəni, biz dünyanın müxtəlif yerlərində bunu görürük. Təhdidlər, risklər artır. Bütün bu mənfi mənzərə fonunda, əlbəttə ki, Azərbaycanın tutduğu mövqe daha da böyük maraq doğurur, özünə daha da böyük rəğbət qazandırır. Çünki sabitlik dövründə deyə bilərlər ki, elə hər yerdə sabitlikdir. Amma bu gün, qeyd etdiyiniz kimi, Azərbaycan bu coğrafiyada sabitlik məkanıdır. Bunun bir çox səbəbləri var, ilk növbədə, hesab edirəm ki, bizim düzgün siyasətimiz, digər tərəfdən, Azərbaycanda bütün xalqların, bütün konfessiyaların bir ailə kimi yaşaması, dini-milli zəmində heç vaxt ayrı-seçkiliyin olmaması. Bu, həm bizim siyasətimizdir, həm də ki, xalqdan gələn bir niyyətdir, təşəbbüsdür, sifarişdir, eyni zamanda, aparılan işlərə xalq tərəfindən göstərilən dəstəkdir. Əsas səbəblər, məncə, bunlardan ibarətdir.

Xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır. Son prezident seçkilərində mənə göstərilən böyük etimad dediyim sözlərin məntiqi sübutudur. Sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Biz bunu yaxın tarixdə görürük. Ona görə Azərbaycanda sabitliyin möhkəmləndirilməsi hər bir vətəndaşın işi olmalıdır, ilk növbədə, dövlətin və hər bir vətəndaşın. Mən çox şadam ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Bu, bizim böyük üstünlüyümüzdür. Bu, bizə imkan verir ki, Azərbaycan islahatlar yolu ilə uğurla getsin. Bu, bizə imkan verir ki, öz iqtisadi imkanlarımızdan istifadə edib, xalqımızın rifah halının yaxşılaşmasına yönəlmiş növbəti addımlar atılsın. Bu, bizə imkan verir ki, Azərbaycan xalqı bundan sonra da sülh və əmin-amanlıq şəraitində yaşasın.

**–Cənab Prezident, təşəkkür edirəm. Bizə səxavətlə vaxt ayırdınız, suallarımıza cavab verdiniz. Bütün Azərbaycan mətbuatı və mediası adından minnətdaram.**

–Sağ olun.

AZƏRTAC

*Hikmət HACIYEV:*

# Ermənistan rəsmilərinin son dövrlərdəki açıqlamaları danışıqlar prosesinin irəli aparılmasına xidmət etmir

*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.*



**–Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar son dövrlərdə qismən nikbin ab-havanın yaranmasına baxmayaraq, Ermənistan tərəfindən müxtəlif rəsmi səviyyələrdə verilən bəyanatlar bu ölkənin sülhün əleyhinə olduğunu nümayiş etdirir. Növbəti belə bir bəyanatla Ermənistan baş nazirinin mətbuat katibi Vladimir Karapetyan "Sputnik Armenia"ya verdiyi müsahibəsində çıxış edib. Bu barədə nə deyərdiniz?**

–Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin intensiv və nəticəyönümlü danışıqlar yolu ilə həlli üçün Azərbaycanın beynəlxalq ictimaiyyətlə birlikdə atdığı konstruktiv addımlarına baxmayaraq, son dövrlərdə Ermənistan tərəfindən müxtəlif rəsmi səviyyələrdə verilən açıqlamalar heç bir halda danışıqlar prosesinin irəli aparılmasına xidmət etmir. Ermənistan baş nazirinin mətbuat katibinin və digər Ermənistan rəsmilərinin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinin danışıqlarda iştirakı barədə iddiaları danışıqlar prosesini iflic etmək cəhdlərindən başqa bir şey deyil.

Sülh ifadəsinə qarşı çıxış etmək Ermənistanın "münaqişənin məxsusi olaraq sülh yolu ilə həll edilməsi" barədə açıqlamalarının yalnız deklarativ xarakter daşıdığını, Ermənistan əsl məqsədinin regionda dayanıqlı sülhün təmin edilməsi deyil, hərbi işğala əsaslanan status-kvonu saxlamaq olduğunu açıq şəkildə nümayiş etdirir.

Ermənistan baş nazirinin mətbuat katibi bir məqamı düzgün qeyd edir ki, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Azərbaycan Respublikasının Dağlıq Qarabağda yaşayan erməni əsilli vətəndaşları ilə dialoq və təmaslarına maneə olan hal isə Ermənistanın işğalçılıq siyasəti və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğudur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının çağırışlarına baxmayaraq, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında belə dialoqun yaranmasına və sülh şəraitində gələcək birgəyaşayışın müzakirə edilməsinə imkan vermir. Ona görə də ilkin və ən vacib addım kimi, BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinin tələblərinə uyğun olaraq Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır.

Sülhün əleyhinə çıxış etmək və aqressiv ritorika ilə danışıqlar prosesini pozmaq əvəzinə, Ermənistan rəhbərliyi öz xalqını sülhə və qonşu dövlətlərlə mehriban münasibətlərə hazırlamalıdır.

**–Ermənistanın yeni hökuməti "iqtisadi inqilab" şüarı ilə çıxış edərək iqtisadi inkişafla bağlı yeni proqram təqdim edib. Avropa İttifaqının dəstəyi ilə bu günlərdə münaqişənin həllinin iqtisadi dividendləri ilə bağlı hesabat hazırlanıb. Münaqişə həll edilmədən Ermənistanın iqtisadi inkişafı mümkündürmü?**

–İqtisadiyyatın öz qanunları var və iqtisadiyyat inqilabı şüarlar deyil, orta və uzunmüddətli baxışa əsaslanan ardıcıl və planlı iş tələb edir. Münaqişə həll edilmədən Ermənistanda hər hansı iqtisadi sıçrayışın əldə edilməsini iddia etmək utopiyadır.

Avropa İttifaqının sifarişi ilə hazırlanan sözügedən hesabatla tanışıq və orada əks olunan bəzi tezisləri bölüşürük. Əslində Azərbaycan Respublikası həmişə bunu bəyan edirdi ki, münaqişənin həlli regional əməkdaşlığa və çiçəklənməyə xidmət edəcək və bundan da, ilk növbədə, Ermənistan əhalisi faydalana biləcək. Başqa sözlə desək, iqtisadi praqmatizm münaqişənin həllində təsir göstərə biləcək vacib amillərdən biridir.

Hərbi işğalı davam etdirmək Ermənistanın siyasi, iqtisadi və demoqrafik resurslarını tükətməklə yanaşı, kiçik daxili bazara malik olan Ermənistanı real regional əməkdaşlıq imkanlarından, investisiyalardan və dayanıqlı inkişafdan məhrum edir.

Hələ də ümidvar olmaq istərdik ki, Ermənistanın yeni rəhbərliyi Köçəryan-Sarkisyan kriminal xuntasının səhvlərini təkrar etməyəcək, siyasi və iqtisadi praqmatizm nümayiş etdirərək münaqişənin həlli istiqamətində ciddi addımlar atacaq, işğalçılıq siyasətinə son qoyaraq regional sülh və çiçəklənmə yolunu seçəcək.

**AZƏRTAC**

# Ədliyyə naziri Xaçmazda vətəndaşları qəbul edəcək

**Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov tərəfindən fevralın 15-də Xaçmaz rayonunda vətəndaşların qəbulu keçiriləcək.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xaçmaz regional ədliyyə idarəsində (ünvan: Xaçmaz şəhəri, H.Əliyev prospekti, bina 17) keçiriləcək qəbulda Xaçmaz, Quba və Qusar rayonlarında yaşayan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.

Vətəndaşlar qəbula Xaçmaz regional ədliyyə idarəsi (əlaqə telefonu: (02332) 5-18-88, 055 950-58-83), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

**AZƏRTAC**

# Azərbaycanda 130-dək Niderland şirkəti qeydiyyatdan keçib

**Azərbaycanda xidmət, tikinti, nəqliyyat, sənaye, ticarət, rabitə, bank və sığorta sahələrində 130-dək Niderland şirkəti qeydiyyatdan keçib.**



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Linden ilə görüşdə deyib.

R.Lindenin Azərbaycan-Niderland əlaqələrinin inkişafına töhfələr verdiyini vurğulayan iqtisadiyyat naziri iki ölkənin iqtisadi-ticarət əlaqələrinin genişləndiyini, qarşılıqlı səfərlərin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə ölkələrimizin kənd təsərrüfatı, sənaye, kimya, ekologiya və sair sahələrdə əməkdaşlıq etdiyi, ötən il ticarət dövriyyəsinin artdığı, iqtisadi əlaqələrin genişlənməsində biznes forumların, işgüzar görüşlərin rolu qeyd edilib. Diqqətə çatdırılıb ki, Azərbaycanda xidmət, tikinti, nəqliyyat, sənaye, ticarət, rabitə, bank və sığorta sahələrində 130-dək Niderland şirkəti qeydiyyatdan keçib. Ötən il istifadəyə verilmiş Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin baş planı və ümumi layihəsi Niderlandın "Royal Haskoning" şirkəti tərəfindən hazırlanıb, Niderland şirkətləri ilə Abşeronda göllərin, o cümlədən Böyükşor gölünün bərpası sahəsində əməkdaşlıq edilib.

Bildirilib ki, Azərbaycanın artan tranzit imkanları, bu sahədə reallaşdırılan mühüm layihələr - Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Beynəlxalq Dəniz Ticarət Limanı, beynəlxalq hava limanları tranzit-logistika əməkdaşlığının inkişafı üçün geniş imkanlar yaradır. Azərbaycanda viza rejiminin sadələşdirilməsi və elektron vizanın tətbiqi ölkəyə gələn turistlərin sayını daha da artırıb. Təkcə ötən il Niderlanddan Azərbaycana gələn turistlərin sayı 2017-ci ilə nisbətən 26,6 faiz artıb.

Ş.Mustafayev Azərbaycan-Niderland əlaqələrinin iqtisadiyyatın müxtəlif sahələri ilə yanaşı, təhsil sahəsini də əhatə etdiyini qeyd edib, ADA Universiteti və Maastrixt İdarəetmə Məktəbi arasında səmərəli əməkdaşlığı vurğulayıb, həmin universitetdə azərbaycanlı tələbələrin təhsil aldığını diqqətə çatdırıb.

İqtisadiyyat naziri qeyd edib ki, Sumqayıt Kimya Sənaye Parkında yaradılan Peşə Təhsili Mərkəzinə Niderlandın Maastrixt İdarəetmə Məktəbi də cəlb oluna, bu ölkənin şirkətləri Azərbaycanda yaradılan sənaye parklarında layihələrin icrasında iştirak edə bilərlər.

Ş.Mustafayev ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi potensialını, bir sıra sahələrdə təcrübə mübadiləsinin faydalı olacağını vurğulayıb, növbəti Azərbaycan-Niderland biznes forumunun bu il Azərbaycanda keçirilməsini təklif edib.

Rene Van der Linden Maastrixt İdarəetmə Məktəbinin proqramının ADA Universitetində tətbiqinin ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın inkişafına müsbət töhfəsini vurğulayıb. O, Sumqayıt Kimya Sənaye Parkının nümayəndələrinin də Niderlandın "Kemelot" sənaye parkında olduğunu qeyd edib, Azərbaycan şirkətlərinin "Kemelot"da fəaliyyəti üçün imkanları diqqətə çatdırıb. Bildirib ki, ölkəsi Şimal-Cənub, Şərq-Qərb dəhlizlərinə, Ələtdə azad ticarət zonası tipli xüsusi iqtisadi zona layihəsinə, alternativ enerji mənbələri, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığa, eləcə də mövcud əlaqələrin genişlənməsinə maraq göstərir.

Görüşdə Azərbaycan-Niderland iqtisadi əlaqələrinin genişləndirilməsi, qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Vaşinqtondakı Xəzər Siyasi Mərkəzində iki hesabatın təqdimatı keçirilib

**Fevralın 11-də Vaşinqtondakı Xəzər Siyasi Mərkəzində "Xəzər regionunun təhlükəsizliyi" və "Böhranlı infrastrukturun qorunması və modernləşdirilməsi firavanlıq və təhlükəsizlik yoludur" adlı iki hesabatın təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, həmin hesabatlarda Xəzər regionunda təhlükəsizlik, Qafqazda və Mərkəzi Asiyada mühüm infrastrukturun modernləşdirilməsi və müdafiəsi, bu regionun Birləşmiş Ştatlar üçün strateji əhəmiyyəti məsələləri ətraflı müzakirə edilir. Xəzər Siyasi Mərkəzinin icraçı direktoru Əfqan Nifti tədbiri açaraq qonaqları salamlayıb, panel iştirakçılarını və hesabatların müəlliflərini auditoriyaya təqdim edib.

Müəllifi Xəzər Siyasi Mərkəzinin Şura üzvü və keçmiş səfir Riçard E.Houqland olan "Xəzər regionunun təhlükəsizliyi" adlı hesabatda diplomatların, hərbi və akademik ekspertlərin yanaşma və konsepsiyaları toplanıb. Əlaqədar dairələri bu regionun spesifikası barədə məlumatlandırmaq üçün nəzərdə tutulmuş bu hesabatda ekspertlər ABŞ-ın son iyirmi beş ildə Xəzər regionu barədə xarici siyasətini müzakirə edir, qarşıdakı illərdə bu regiona xüsusi diqqət yetirilməsini tövsiyə edirlər.

Xəzər Siyasi Mərkəzi yanında "Xəzər regionunda siyasət və təhlükəsizlik" proqramının rəhbəri, səfir Houqland deyib: "Rusiya, Çin, Amerika və Avropanın maraqlarının coğrafi səviyyədə kəsişdiyi Xəzər regionunun bu yeni tədqiqatı sayəsində Xəzər Siyasi Mərkəzi ABŞ-ın xarici siyasət dairələrində öz nüfuzunu artırmaqda davam edir". O vurğulayıb ki, hesabata daxil edilmiş siyasi tövsiyələr icmalçılar və xarici siyasətin icraçıları üçün faydalı olacaq.

Xəzər Siyasi Mərkəzi tərəfindən buraxılmış "Böhranlı infrastrukturun qorunması və modernləşdirilməsi firavanlıq və təhlükəsizlik yoludur" adlı ikinci məruzə Xəzər regionundakı infrastruktur sistemlərinin üzləşdiyi təhdidlərin müzakirəsinə həsr edilib. Məruzədə region ölkələrinin ABŞ və digər qərbli tərəfdaşlarla regional əməkdaşlığını genişləndirməyin zəruri olması əsaslandırılır. ABŞ-ın Azərbaycan Respublikasındakı keçmiş səfiri, Xəzər Siyasi Mərkəzinin Şura üzvü Robert Sekuta tərəfindən aparılmış araşdırmada elektron informasiya texnologiyaları, nəqliyyat və digər mühüm infrastruktur sistemlərinin monitorinqi, onların bütövlüyünün təmin olunması, habelə region ölkələrinin əhalisinin firavanlaşması, onların rifahı və təhlükəsizliyi üçün hökumətlər və özəl sektor arasında birgə işin spesifikası və əməkdaşlıq yolları müzakirə edilir.

Xəzər Siyasi Mərkəzi yanında "Xəzər regionunun energetika və iqtisadiyyatı" proqramının sədri, səfir Sekuta deyib: "Böyük Xəzər regionunda yollar çəkilməsi, limanlar, informasiya və kommunikasiya sistemləri və elektrik şəbəkələri və digər infrastruktur obyektləri tikintisi üçün hər il milyardlarla dollar sərf edilir".

Keçmiş diplomat deyib: "Bu infrastrukturun yaradılması kimi, onun qorunub saxlanması da vacibdir".

Tədbirdə Amerikanın "İrs" fondunun Beynəlxalq Tədqiqatlar Mərkəzinin direktoru Lyuk Koffi və Xəzər Siyasi Mərkəzi yanında proqram rəhbəri Kristen Çerigeyt də çıxış edib. Onlar siyasi və iqtisadi təhlükəsizlik, habelə informasiya texnologiyaları sahəsində təhlükəsizlik məsələlərinin müxtəlif aspektlərini şərh ediblər.

Tədbirdə Vaşinqtondakı diplomatik korpusun və ABŞ administrasiyasının, habelə müxtəlif analitik mərkəzlərin nümayəndələri iştirak ediblər.

Hesabatlar barədə daha ətraflı məlumat almaq üçün bu linkə müraciət edə bilərsiniz:: http://www.caspianpolicy.org/category/report/

**AZƏRTAC**

# ABŞ-ın Azərbaycana yüksək marağı: Bolton əməkdaşlığın üç istiqaməti haqqında

***"Newtimes.az" portalında "ABŞ-ın Azərbaycana yüksək marağı: Bolton əməkdaşlığın üç istiqaməti haqqında" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.***

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun bu il yanvarın 29-da Azərbaycan Prezidenti İlham Əliyevə etdiyi telefon zəngindən sonra siyasi və ekspert dairələrində bir canlanma müşahidə edilir. Onlar konkret olaraq ABŞ-ın Cənubi Qafqaz siyasətində hansı dəyişikliklərin baş verdiyi ilə bağlı proqnozlar verməyə çalışırlar. Maraqlıdır ki, bu hadisədən bir neçə gün öncə C.Bolton Nikol Paşinyana da zəng edibmiş. Ermənistanın baş naziri ciddi bir şeydən danışmadıqlarını desə də, ona erməni ekspertlər inanmırlar. Hesab edirlər ki, N.Paşinyan nələrisə gizlədir. Bununla yanaşı, belə təəssürat yaranır ki, C.Bolton N.Paşinyanla regional məsələləri və konkret olaraq Dağlıq Qarabağ münaqişəsini müzakirə etməyə ehtiyac görməyib. O, bu barədə əsas olaraq Azərbaycan tərəfi ilə fikir mübadiləsi aparmağa üstünlük verib. Bu reallığın fonunda Con Boltonla İlham Əliyev arasında danışıqda hansı məqamlara toxunulmasının geosiyasi analizi ciddi aktuallıq kəsb etdiyindən, bu məqam üzərində geniş dayanmağa ehtiyac görürük.

### Lider imici: İlham Əliyev yüksək zirvədə

Amerika Prezidentinin milli təhlükəsizlik müşaviri Con Boltonun Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi siyasi və ekspert dairələrində böyük maraq doğurub. Həmin hadisədən bir neçə gün öncə C.Bolton Nikol Paşinyana da telefon edib, lakin buna fikir verən olmadı. İlham Əliyevlə olan qısa söhbətin məzmunu isə diqqətləri çəkdi.

Aydındır ki, ABŞ üçün İlham Əliyev faktoru N.Paşinyan faktorundan qat-qat yüksəkdədir. Azərbaycan Prezidenti siyasi lider, dövlət başçısı, nüfuzlu şəxsiyyət kimi N.Paşinyan kimilərdən dəfələrlə üstündür. Ekspert dairələri də yaxşı bilirlər ki, İlham Əliyevlə aparılan müzakirələrin əhəmiyyəti daha çoxdur. Bu səbəbdəndir ki, hətta Ermənistan mediası "Qarabağ haqqında niyə məhz İlham Əliyevlə danışırlar?" sualını təkrar-təkrar verir və cavab tapmağa çalışır. Bu məsələ həm də N.Paşinyanın "C.Boltonla Qarabağ məsələsini müzakirə etmədik", deməsi fonunda erməniləri düşündürür.

Deməli, erməni ekspert dairələri üçün mənzərə aşağıdakı kimidir: ABŞ-ın yüksək səviyyəli məmuru Ermənistan tərəfi ilə münaqişə haqqında danışmaqdan çox Azərbaycanla müzakirə aparmağa üstünlük verir. Bu halda Azərbaycanın geosiyasi əhəmiyyəti Ermənistandan dəfələrlə yüksək qiymətləndirilir. Əgər Vaşinqton əsas olaraq Azərbaycanla danışmağı seçirsə, deməli, o biri tərəfi razı salmaq onlar üçün elə də çətin olmayacaq.

Biz iddia etmirik ki, ABŞ tam olaraq ədalət prinsipi üzrə münaqişəni həll etməyə çalışır. Məsələnin bu tərəfi başqa məqamlarla da sıx bağlıdır. Lakin açıq görünür ki, Amerika üçün Cənubi Qafqazda regional əhəmiyyətli geosiyasi-hərbi, iqtisadi, sosial, nəqliyyat-logistik, enerji, təhlükəsizlik kimi məsələləri Azərbaycanla müzakirə etmək ciddi əhəmiyyət kəsb edir. C.Boltonun Azərbaycan Prezidenti ilə danışığını qısa xarakterizə etməsi də bu tezisi təsdiqləyir. C.Bolton özünün tvitter səhifəsində yazıb ki, İlham Əliyevlə ikitərəfli əlaqələri, regional problemləri və ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dəstəyini müzakirə ediblər.




Telefon danışığı ilə bağlı Azərbaycan tərəfinin rəsmi açıqlaması belədir: "Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib". Yəni, Amerika və Azərbaycan tərəfinin telefon danışığı ilə bağlı yaydığı informasiya tam üst-üstə düşür.

Bunun fonunda N.Paşinyanla hansı məsələlərin müzakirə edildiyi qeyri-müəyyən olaraq qalır. Deməli, erməni tərəfi ən azından səmimi deyil. Bunun da əsas səbəbi münaqişənin həllində Ermənistanın mövqeyinin xeyli zəifləməsi ola bilər. Çünki Minsk qrupunun həmsədrləri Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını mütləq şərt kimi qoyurlar. Onların çatışmayan cəhəti Ermənistandan bu şərtə əməl etməsini qəti şəkildə tələb etməməsindədir. Bunun da səbəbi aydındır: həmsədrlər bu və ya digər dərəcədə Ermənistana havadarlıq etdiklərindən, ikili standart siyasəti yeridirlər. Ermənistana havadarlıq edildiyinin tarixi, geosiyasi və dini səbəbləri hamıya məlumdur.

Bunlar hər kəsin bildiyi həqiqətdir və bizim məhz burada onu xatırlatmağımızda əsas məqsədimiz bir tərəfdən həmsədrlərin qətiyyətsizliyini ifadə etmək, digər tərəfdən isə rəsmi İrəvanın çıxılmaz vəziyyətə düşdüyünü vurğulamaqdır. Bunun fonunda Azərbaycan Prezidentinin mövqeyinin tam obyektivliyi, səmimiliyi və ədalətliliyi ilə yanaşı, yüksək səviyyədə sülhpərvərliyi və barışa sadiqliyi ilə seçildiyini dərk etmək çətin deyil. Çünki Azərbaycan tam haqlı olduğunu bilir, buna görə də özünün ərazi bütövlüyünü bərpa etmək üçün istənilən üsuldan, o cümlədən hərbi əməliyyatlardan istifadə etmək hüququna təbii olaraq sahibdir. Ancaq Azərbaycan rəhbərliyi regional əməkdaşlığı, qonşuluq münasibətlərini, müasir dünyanın geosiyasi dinamikasını və başqa əhəmiyyətli məqamları nəzərə alaraq səbirlə təcavüzkarı düz yola gətirməyə çalışır. Ancaq bu istiqamətdə də səbrin bir sonu var.

### ABŞ-ın geosiyasi seçimində yeni məqamlar: üç aspektin vəhdəti işığında

Yuxarıda vurğulanan məqamlardan Con Boltonun Azərbaycanın dövlət başçısı ilə telefon söhbətində ifadə etdiyi fikirlərin üç aspektdə əhəmiyyətli olduğu nəticəsini çıxarmaq olar. Birincisi, ABŞ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması faktı arasında sıx bağlılığın olduğunu qəbul etməyə başlayıb. Bu, geosiyasi kontekstdə ciddi önəm kəsb edir. Çünki başa düşülür ki, münaqişəni ədalətli şəkildə həll etməkdən başqa yol yoxdur. Bu qənaət birbaşa Azərbaycanın müstəqil dövlət kimi əldə etdiyi uğurlardan qaynaqlanır. Yəni, Azərbaycan real olaraq bütün sahələr üzrə regionun şəksiz lideridir. Bu cür statusu olan dövlətə qarşı ədalətsiz davranmaq çox pis nəticələr verə bilər. Belə görünür ki, okeanın o tayında bunu anlamağa çalışanlar vardır.

İkincisi, ABŞ Avropanın enerji təhlükəsizliyinin təmini ilə regional geosiyasi təhlükəsizlik arxitekturasının səmərəli modelinin qurulması arasında uyğunluğun saxlanmasında Azərbaycanın həlledici rolunu anlamağa başlayıb. Bunun konkret əlamətlərindən biri Vaşinqtonun tədricən Azərbaycanın real geosiyasi statusunu qəbul etməyə doğru getdiyini nümayiş etdirməsidir. C.Boltonun zəngi məhz bu kontekstdə geosiyasi məna çaları olan olaydır. Məsələnin sırf geosiyasi qüvvələr balansını təmin etmək aspektində vacibliyi buradan aydın görünür.

Çünki öncədən ABŞ Prezidenti də daxil olmaqla, Qərbin siyasi liderləri Avropanın enerji təhlükəsizliyində Azərbaycanın həlledici rolunu dəfələrlə açıq etiraf ediblər. Aİ rəhbərliyi də dəfələrlə həmin mövqeyini açıqlayıb. Ancaq onlar bunu qeyd etməklə, Azərbaycanın layiq olduğu geosiyasi statusu tam qəbul etmək istəmirlər. Konkret desək, Ermənistanın təcavüzkarlığını müxtəlif üsullarla ört-basdır etməyə çalışırlar. Bu proses indi də gedir. E.Makronun, A.Merkelin Cənubi Qafqaza səfərlərində bunu növbəti dəfə müşahidə etdik. Lakin, görünür, Vaşinqton bu ədalətsiz vəziyyəti dəyişməyə doğru addım atmaq istəyir. C.Boltonun təhlükəsizliyin təmini ilə münaqişənin sülh yolu ilə həllini eyni məntiqi müstəvidə ifadə etməsi həmin dəyişikliyin əlaməti ola bilər.

Üçüncüsü, telefon söhbətinin məzmunu onu göstərir ki, Vaşinqton Azərbaycanla ikitərəfli əlaqələrə artıq daha böyük ölçüdə qlobal geosiyasi dinamika kontekstində baxır. Bu, belədirsə, prinsipial dəyişiklikdir. Çünki indiyə qədər Qərb dövlətləri Azərbaycan məsələsinə bir qayda olaraq postsovet məkanı miqyasında nəzər salırdılar. O cümlədən daha çox Rusiyanın Qafqazdakı maraqları prizmasından yanaşırdılar. Bu da öncədən Cənubi Qafqazın bütün dövlətlərini "eyni siyasi qəlibə" salmaq demək idi. Yəni, real vəziyyət deyil, mifik geosiyasi balansı qoruyub saxlamaq kursu götürülmüşdü. Bu cür yanaşmada təcavüzkarla onun qurbanı arasında fərq qoyulmur - abstrakt təhlükəsizlik, demokratiya, insan haqları kimi anlayışlar üzərindən siyasət yeridilir. İkili standartların mövcudluğu isə heç bu çərçivədə belə obyektiv olmağa imkan vermir. Nəticədə, təhlükəsizlik deyil, təhlükə yaranır, sülh deyil, yeni təhdidlər formalaşır, münaqişənin həlli deyil, onun daha da dərinləşməsi baş verir.

Ancaq məsələyə qlobal geosiyasi dinamikanın reallıqları müstəvisində yanaşdıqda, ağla qaranı seçmək imkanı yaranır. Konkret dövlətə konkret yanaşmaq mümkün olur. Bu baxımdan Azərbaycanın dünya siyasətinə, təhlükəsizlik məsələlərinə, əməkdaşlıq modellərinin inkişafına verdiyi töhfələrlə regionun digər iki ölkəsinin (Ermənistan və Gürcüstanın) cəm halında verdiyi töhfələr müqayisə belə oluna bilməz. Azərbaycan onların cəmindən qat-qat üstün səmərə verir. Bu səbəbdən də Azərbaycanla regionun aparıcı ölkəsi kimi münasibət qurmaq bütövlükdə dünya üçün sərfəlidir.

Beləliklə, əgər Con Bolton dediklərində səmimidirsə və Vaşinqtonun Cənubi Qafqaz siyasətində ola biləcək dəyişikliklərin müjdəsini veribsə, onda regional miqyasda geosiyasi mənzərədə keyfiyyətcə yeni səhifə açıla bilər. Sülh, barış, əməkdaşlıq səhifəsi. Və bu səhifənin memarı Azərbaycan Prezidentidir!

**Newtimes.az**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib



**Fevralın 12-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib. Qəbulda Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə müdirləri və departament direktorları iştirak ediblər. Bu barədə AZƏRTAC-a komitədən məlumat verilib.**

Vətəndaşlar Dövlət Komitəsinin rəhbər şəxsləri tərəfindən fərdi qaydada qəbul edilib. Onların müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq, status və digər məsələlərlə bağlı olub.

Məlumat verilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məşğulluğunun təmin edilməsini və maddi rifahının yüksəldilməsini daim diqqət mərkəzində saxlayır. Bu kateqoriyadan olan vətəndaşlarla bağlı zəruri tədbirlərin həyata keçirilməsi sosial siyasətin prioritet istiqamətlərindən biridir. Bu baxımdan, Bakı və Sumqayıt şəhərlərində hələ də ən ağır şəraitdə yaşayan məcburi köçkünlərə yeni mənzillərin ilk növbədə verilməsi barədə Birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığının davamlı şəkildə icrası mühüm əhəmiyyət kəsb edir. Respublikanın digər ərazilərində də məcburi köçkünlər üçün yeni yaşayış kompleksləri inşa olunur. Məcburi köçkünlərin yeni ev və ya mənzillə təmin olunması mərhələli şəkildə aparılır. Hazırda Abşeron rayonu ərazisində yeni istifadəyə verilmiş yaşayış kompleksində məcburi köçkün ailələrinin yerləşdirilməsi davam etdirilir.

Qəbula gələn vətəndaşların qaldırdıqları məsələlərin araşdırılacağı və qanunvericiliyə uyğun şəkildə həll ediləcəyi bildirilib.

AZƏRTAC

# AZƏRTAC-ın Qətər və Livan KİV-ləri ilə sıx əməkdaşlığı məmnunluq doğurur

**İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının dəstəyi ilə Azərbaycana gələn Qətər və Livanın bir sıra KİV əməkdaşları AZƏRTAC-da olublar.**



Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanov qonaqlara Azərbaycanın tarixi, mədəniyyəti, turizmi, mətbuatı, həmçinin AZƏRTAC-ın fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, Şərqdə ilk dəfə demokratik cümhuriyyət Azərbaycanda qurulub. Müstəqil Azərbaycan dövləti əsası həmin dövrdə qoyulan demokratik ənənələri davam etdirir və zənginləşdirir. Bu gün Azərbaycan mötəbər beynəlxalq tədbirlərin, idman yarışlarının keçirildiyi qlobal platformaya çevrilib. Ölkənin tarixi məkanları, təbiəti, qədim mədəniyyəti, yaradılan müasir infrastruktur turizmin inkişafına böyük təkan verib.

Qeyd olunub ki, Azərbaycanda hazırda çox sayda onlayn və çap KİV-ləri fəaliyyət göstərir. 1920-ci ildə yaradılan və böyük inkişaf yolu keçən AZƏRTAC hazırda Dünya Xəbər Agentlikləri Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı (OANA) və Türkdilli İnformasiya Agentlikləri Birliyinə sədrlik edir. AZƏRTAC, eyni zamanda, ərəb ölkələrinin bir çox media qurumları, o cümlədən Qətərin QNA və Livanın NNA agentlikləri ilə sıx tərəfdaşlıq əlaqələri qurub. Həmçinin İslam Əməkdaşlıq Təşkilatının media orqanı olan İslam Ölkələri İnformasiya Agentlikləri Birliyinin Şura üzvüdür.

Livanın "Cumhuriyyə" qəzetinin baş redaktoru, Livan Jurnalist Həmkarları Təşkilatının sədr müavini Corc Solac AZƏRTAC-ın dünya informasiya məkanında fəaliyyətinin yüksək qiymətə layiq olduğunu, ərəb ölkələrinin KİV-ləri, xüsusən də Livanın xəbər agentliyi ilə əlaqələrinin inkişafından məmnunluğunu bildirib.

İƏT Jurnalistləri Assosiasiyasının sədri Fazil Abbasovun, Qətərin "Qalf Tayms", "Al-Arab", "Lusail", "Al-Raya", "Peninsula", "Al-Şarq", həmçinin Livanın "Media Deyli Star" və "Cedarnyus" qəzetlərinin müxbirlərinin iştirak etdiyi görüşdə Azərbaycanda medianın inkişafı, müasir jurnalistikanın trendləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Qətər və Livan KİV-lərinin əməkdaşları Dövlət Turizm Agentliyində də görüş keçiriblər.

AZƏRTAC

# Türkiyədə Xocalı Parkının və Ana fəryadı abidəsinin açılışı olub

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərin tərkib hissəsi olaraq Türkiyənin Kahramanmaraş şəhərində salınan Xocalı Parkının və burada ucaldılan Ana fəryadı abidəsinin açılış mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, açılış mərasimində rəsmi şəxslər, diplomatlar, millət vəkilləri, Türkiyə ictimaiyyətinin tanınmış nümayəndələri, yerli sakinlər, QHT və KİV nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib, şəhidlərimizin ruhlarına dualar oxunub.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Kahramanmaraş Böyükşəhər Bələdiyyəsinin sədri Fateh Mehmet Erkoc, Türkiyə Böyük Millət Məclisinin deputatı İmran Kılıç, Azərbaycanın Ankaradakı səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova, Kahramanmaraş-Azərbaycan Təhsil Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Turalın Şahbazlı və başqalarının çıxışları dinlənilib.

Çıxışlarda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təcavüzkar Ermənistanın Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı törətdiyi soyqırımı aktı ötən əsrdə dünyada insanlıq əleyhinə ən ağır cinayətlərdən biri kimi dəyərləndirilib. Əminliklə ifadə olunub ki, Azərbaycan və Türkiyə xalqları heç zaman Xocalı soyqırımını unutmayacaqlar. Saxta "erməni soyqırımı"nı siyasi alətə çevirən qüvvələr, ilk növbədə, Xocalı soyqırımına baxmalıdırlar.

Vurğulanıb ki, Kahramanmaraş şəhərində belə bir parkın salınması və burada Xocalı abidəsinin ucaldılması Azərbaycan-Türkiyə qardaşlığına daha bir nümunədir.

Sonra parkda Xocalı şəhidlərinin xatirəsinə ağaclar əkilib.

AZƏRTAC

# VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ DİQQƏTLƏ YANAŞILIR





Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Bağbanlar yaşayış massivinin sakinləri ilə görüşüb. Budəfəki görüş də "açıq mikrofon" şəraitində keçmişdir. İşlə təminat, ərazidə kanalizasiya sisteminin qurulması, ara küçələrdə işıq dirəkləri və lampalarının olmaması, artezian çatışmazlığı səbəbindən bəzi küçələrdə suyun fasilələrlə verilməsi kimi məsələlər müraciətlərin əsasını təşkil etmişdir. Bunlarla yanaşı, sakinlər silinən piyada keçidlərinin bərpasını və sakini zəbt edərək, gediş-gəlişə mane olan çayxanalar barədə tədbir görülməsini xahiş ediblər.

Şəhər başçısı Niyazi Bayramov bildirib ki, Gəncə dənim ölkə rəhbəri, möhtərəm Prezident cənab İlham Əliyevin diqqət mərkəzindədir. Gəncədə aparılan abadlıq-quruculuq işlərindən ətraflı söz açan şəhər rəhbəri bildirib ki, şəhərin su-kanalizasiya sistemi yenidən qurulur, bir sıra küçələrdə asfalt örtüyü yenilənir, həmin ərazilərdə müasir işıqlandırma sistemi yaradılır. Bununla yanaşı, 148 çoxmərtəbəli binanın dam örtüyü dəyişdirilib və bu işlər mütəmadi olaraq davam etdiriləcək. Görüşün sonuna qədər sakinlər tərəfindən qaldırılan bir çox məsələ yerindəcə öz həllini tapıb, digərlərinin araşdırılaraq aradan qaldırılması üçün aidiyyəti qurum və təşkilatlara müvafiq tapşırıqlar verilib.

* * *

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun növbəti səyyar qəbulu şəhərin Məhsəti qəsəbəsində baş tutub. Qəbulda Gəncədə fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri də iştirak ediblər. Səyyar qəbulda sakinlər öz şikayət və təkliflərini dilə gətiriblər. Məhsəti qəsəbəsində də mövcud olan su probleminin həlli, küçələrə adların verilərək ünvan lövhələrinin vurulması, sakinlərin qeydiyyatı kimi məsələlər səslənən müraciətlərin əsasını təşkil edib. Həmçinin qəsəbədəki ara yolların asfaltlanması, ərazidə işləyən marşrut avtobuslarının sayının artırılması, qəsəbə ərazisində aptekin açılması xahiş olunub. Bəzi küçələrdə telefon xətlərinin olmaması da sakinləri narahat edən məsələlərdən olub.

Bildirilib ki, Gəncədə artıq 83 yeni salınan küçəyə ad verilib, yaxın zamanlarda ünvan lövhələrinin vurulmasına başlanılacaq. Gəncə Telekommunikasiya İdarəsi tərəfindən telefon xətlərinin çəkilişi ilə bağlı layihə də artıq hazırdır. Bunlarla yanaşı, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Məhsəti qəsəbəsindəki yolların sahmana salınması, ərazidə aptek fəaliyyəti üçün yerin ayrılması istiqamətində tapşırıqlar verib.

Görüşdə sakinlərin fərdi problemləri də dinlənilib. Səsləndirilən bir çox məsələlər yerindəcə öz həllini tapıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Füzuli: barıt qoxulu torpağın bərəkəti

**Cəbhə xəttində atəşkəsin tez-tez pozulması və dinc insanların atəşə tutulması bir daha Ermənistanın təcavüzkarlıq və işğalçılıq niyyətindən xəbər verir. İşğal etdiyi Azərbaycan torpaqlarında yurd yerlərimizi xarabalığa çevirən düşmən öz havadarlarının köməyinə arxalanaraq atəşkəsi pozmaqla əhalini qorxu və vahimə altında saxlamağa cəhd göstərir. Hər dəfə də Azərbaycan ordusu düşmənə layiqli cavab verir və onlar susmağa məcbur olurlar.**



Torpaqlarımızı işğal edən düşmənlə bir neçə addımlıqda yaşayan, işləyən və mübarizə aparan füzulililər ölkədə həyata keçirilən mütərəqqi islahatları rayonun sosial-iqtisadi həyatına tətbiq etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırırlar. Görülən işlər, həyata keçirilən tədbirlər əhalinin əhval-ruhiyyəsini yüksəldir, onları bütün sahələrdə uğurlar qazanmağa ruhlandırır.

Prezident İlham Əliyevin respublikada kənd təsərrüfatının və sahibkarlığın inkişafı, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, əhalinin məşğulluğunun yüksəldilməsi, torpaq sahələrindən səmərəli istifadə olunması barədə tapşırıqları rayonda uğurla icra olunur. Cəbhə bölgəsində yaşayan, işləyən və mübarizə aparan füzulililər öz təsərrüfatlarını genişləndirir, taxılçılıq, pambıqçılıq, baramaçılıq, heyvandarlıq və kənd təsərrüfatının digər sahələri ilə məşğul olmaqla, həm özlərinin sosial rifahlarını yaxşılaşdırır, həm də ölkəmizdə ərzaq bolluğunun yaradılmasına töhfələrini verirlər.

Bu günlərdə Horadiz şəhərində 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaqda səsləndirilən bu və digər faktlar cəbhə zonasındakı inkişafdan daha dolğun xəbər verir. Yığıncaq iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Horadiz şəhərindəki abidəsi önünə gül dəstələri düzüb, sonra rayonda istehsal edilən məhsulların sərgisinə baxıblar.

Rayon icra hakimiyyətinin başçısı Alı Alıyevin hesabat məruzəsində qeyd olunub ki, 2018-ci ildə rayonda ümumi məhsul buraxılışının həcmi 168,4 milyon manat olub, 16,4 milyon manatlıq sənaye, 73,3 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bütün maliyyə mənbələri hesabına əsas kapitala 18,9 milyon manat investisiya qoyulub ki, onun da 13,5 milyon manatı tikinti-quraşdırma işlərinə sərf olunub.

Hesabat ilində rayonda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər, tikinti-quruculuq işləri davam etdirilib. Horadiz şəhərində "Xocalı soyqırımı" qurbanlarının xatirəsinə abidə kompleksi və Əmlak Məsələləri Dövlət Komitəsinin rayon şöbəsi üçün inzibati binası inşa olunub. Hazırda Dövlət Bayrağı Meydanının ərazisində Bayraq Muzeyinin, Bala Bəhmənli kəndi ərazisində rayon mərkəzi xəstəxanasının, Arayatlı kəndində uşaq bağçasının, 8 nömrəli Qayıdış qəsəbəsində 365 yerlik tam orta məktəb binasının tikintisi aparılır.

Aqrar sahədə əldə olunan uğurlardan danışılarkən diqqətə çatdırılıb ki, son illər rayonda strateji məhsul olan taxılçılığın intensiv inkişafına xüsusi diqqət yetirilir. Füzuli taxılçıları ötən il 36 min 300 hektar sahədə taxıl becərib, 108 min 217 ton məhsul əldə edilib. Taxıl istehsalında rayonda yaradılan 4 iri taxılçılıq və bir toxumçuluq təsərrüfatının, həmçinin Aqroparkın rolu böyükdür.

Bildirilib ki, rayonda ənənəvi təsərrüfat sahələri olan pambıqçılıq və baramaçılıq inkişaf etdirilir. Rayon kümçüləri ötən il 37,5 tondan çox yaş barama istehsal edib. Bu göstərici ilə Füzuli rayonu respublikada ən çox barama istehsal edən rayonlar sırasındadır. Yaxın vaxtlarda rayonun Böyük Bəhmənli kəndinin ərazisində barama tədarükü məntəqəsinin tikintisinə başlanılması nəzərdə tutulur.

Hesabat ilində rayonda 2220 ton pambıq, 3991,3 ton tərəvəz, 2985 ton bostan, 1832,7 ton kartof, 1308,9 ton meyvə, 915 ton üzüm, 2776,8 ton ət, 27 min 738 ton süd, 250,7 ton yun istehsal olunub. Ötən il, həmçinin rayonda 223 hektar soya bitkisi, 431,3 hektar şəkər çuğunduru, 333 hektar qarğıdalı, 39 hektar günəbaxan əkilib, yüksək məhsuldarlıq əldə edilib. Rayonda əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir və respublika bazarına bir sıra məhsullar da çıxarılır.

Yığıncaqda füzulili məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əldə olunan nailiyyətlərdən danışılıb, uğurlarla yanaşı, nöqsanlar da qeyd edilib, aidiyyəti xidmət təşkilatlarına tapşırıq və tövsiyələr verilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Prezident Administrasiyasının məsul əməkdaşı Əflatun Rufiyev yığıncaqda çıxış edərək ötən il respublikada sosial-iqtisadi sahədə görülən işlərdən, əldə olunan uğurlardan, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyevin çıxışından irəli gələn vəzifələrdən danışıb.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# "Əmlak Xidmətləri Məkanı ictimaiyyət nümayəndələri və medianın gözü ilə"



**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən fevralın 12-də "Əmlak Xidmətləri Məkanı ictimaiyyət nümayəndələri və medianın gözü ilə" adlı info-tur və açıq qapı günü keçirildi. Vətəndaşlara göstərilən xidmətlər əyani olaraq nümayiş etdirildi, prosedurlar izah olunub, iştirakçıların Məkanda göstərilən xidmətlərlə bağlı suallları cavablandırıldı.**

Məqsəd komitənin göstərdiyi bütün xidmətlərin beynəlxalq standartlar əsasında vətəndaşlara vahid məkandan təqdim edilməsi, tətbiq edilən yeniliklər və elektron idarəetmə mexanizmi ilə ictimaiyyətin, QHT nümayəndələrinin, jurnalistlərin, ekspertlərin tanışlığı və onların məlumatlandırılmasıdır. Əmlak idarəçiliyi sahəsində, o cümlədən özəlləşmə, torpaq, kadastr, ünvan və qeydiyyatla əlaqədar göstərilən funksional xidmətlərin alçatanlığının nümayişi tədbirin əsas vəzifələrindəndir.

İnfo-tur çərçivəsində ictimaiyyət nümayəndələri və jurnalistlər ilk dəfə olaraq burada baş tutan hərracın keçirilmə zalında oldular. Qeyd edildi ki, virtual özəlləşmə prinsipini reallaşdıran elektron hərrac sistemi vasitəsilə istənilən investor ölkədə və ya xaricdə olmasından asılı olmayaraq, sifariş verdiyi əmlakı hərrac günü onlayn olaraq özəlləşdirə bilir.

Daha sonra media nümayəndələri keçirilən real hərracı canlı olaraq izləyiblər. Bu dəfəki hərracda 30 əmlaka 36 sifariş verilib.

Hərracın ardından tədbir iştirakçıları Məkanın fəaliyyət prinsipi ilə tanış olublar. ƏXM-da ümumilikdə Komitənin fəaliyyət sahələrinə uyğun 46 xidmət vətəndaşa daha operativ göstərilməklə onların işini sadələşdirir. Vətəndaşlar torpaq və qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, əmlakın özəlləşdirilməsi, qiymətləndirilməsi, daşınmaz əmlakla bağlı alqı-satqı əməliyyatlarının birbaşa həyata keçirilməsi, kadastr və yerquruluşu planlarının hazırlanması, o cümlədən daşınmaz əmlak və ünvan reyestri ilə bağlı arayışların verilməsi xidmətlərindən yararlana bilərlər. Həmçinin, daşınmaz əmlakın, yeni torpaqların, fərdi yaşayış sahələrinin və qeyri-yaşayış sahələrinin qeydiyyatını aparmaq imkanı var. Bununla yanaşı, ƏXM-da notarius, bank, memarlıq və layihələndirmə işləri, əmlakın sığortalanması xidmətləri də həyata keçirilir.

Qeyd edilib ki, məkanda gün ərzində orta hesabla 1000-ə yaxın vətəndaş müxtəlif əməliyyatlardan istifadə edir. Yüksəkixtisaslı 100-ə yaxın işçi həftənin bütün günləri (şənbə və bazar günləri daxil) məkana üz tutan insanların xidmətindədir. Qısa müddətdir fəaliyyətə başlamasına baxmayaraq, Məkana 20 mindən çox müraciət daxil olub. Gələcəkdə isə məkan arealını genişləndirməklə Gəncə-Qazax, Quba-Xaçmaz, Şirvan, Cənub bölgələrini əhatə edəcəkdir.

Binada könüllülər masası yaradılıb və onların xidmətlərindən də istifadə olunur. Vətəndaşların məlumatlı olması üçün informativ monitorlar, tablolar da quraşdırılıb. Xidmətdən yararlanmaq üçün elektron növbəlilik prinsipi həyata keçirilir. Hər hansı bir əməliyyatı yerinə yetirmək istəyən vətəndaş sıra nömrəsini monitorlarda görə bilir. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait var. Tədbir iştirakçıları bəzi xidmətlərin, elektron informasiya sistemlərinin iş prinsipi ilə əyani olaraq tanış oldular.

**N.CAVADOV,**
**"Respublika".**



# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 7 ildə

**Azərbaycanın müstəqillik illərində qazandığı ən böyük nailiyyətlərdən biri də qüdrətli Orduya sahib olmasıdır. 2018-ci ildə 100 illiyini qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ildən-ilə daha da artır. Azərbaycan ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə Bakıda Azadlıq meydanında keçirilən təntənəli hərbi parad, eləcə də sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş parad Milli Ordumuzun qüdrətini bir daha göz önünə gətirdi, müstəqil Azərbaycanın dünyanın ən müasir və güclü Orduya sahib olduğunu göstərdi. Prezident cənab İlham Əliyev Ordumuzun döyüş qabiliyyətinin artırılmasını, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsini hər zaman diqqətdə saxlayır. Bu diqqətin nəticəsidir ki, indi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən qüdrətli 50 ordusu sırasındadır və hər an istənilən vəzifəni icra edə bilər. Milli Ordumuzun möhtəşəm qələbələri də bunu sübut edir. 2016-cı ilin aprelində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən Ordumuzun əks-hücuma keçərək Ağdərə, Cəbrayıl, Füzuli rayonlarının iki min hektar ərazisini işğaldan azad etməsi, 2018-ci ilin mayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisini düşmən nəzarətindən çıxarması deyilənləri bir daha təsdiqləyir. Bu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident cənab İlham Əliyev bu faktı xüsusi vurğuladı: "Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu, çox uğurlu əməliyyat idi. Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni bu hadisə - Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək. Sadəcə, danışıqlara ümid olduğu üçün biz danışıqlar yolunu, hələ ki əsas vasitə kimi görürük. Ancaq eyni zamanda, hərbi gücümüzü də artırırıq. Döyüş qabiliyyətimizlə bağlı keçən il aparılan işlər, əlbəttə ki, çox yüksək qiymətə layiqdir".**

Ümumiyyətlə, 2018-ci il ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatındakı hadisələrin əhəmiyyəti və zənginliyi baxımından da uğurlu il kimi səciyyələndirilməlidir. Çünki ötən il respublikamızın hərtərəfli, dinamik inkişafı təmin olunub, ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilib, 2019-cu və gələcək illərin iqtisadi inkişafının təməli qoyulub. İqtisadi inkişaf və demokratikləşmə xəttini milli inkişafın dəyişməz formulu kimi önə çəkən ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ölkəmizin qlobal siyasi arenada nüfuzunun daha da artmasını, regional və beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzinə çevrilməsini təmin edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı" ölkə imici qazandırıb, həmçinin onu davamlı və tarazlaşdırılmış iqtisadi inkişafa çatdırıb.

Azərbaycanın 2003-cü ildən başlayan inkişaf mərhələsi yeni hədəflərlə müşayiət olunur. Bunu həm iqtisadi vəzifələrin uğurla yerinə yetirilməsi, həm yeni inkişaf istiqamətlərinin müəyyən edilməsi, həm də dəyişən daxili və beynəlxalq iqtisadi mühit şərtləndirir. Ölkəmizdə Prezident cənab İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında islahatlar konsepsiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilir. Prosesin vüsətini, miqyasını, prioritetləri, hədəf olaraq seçilən vəzifələrin əhəmiyyətini nəzərə alaraq onu böyük əminliklə islahatların növbəti dalğası hesab etmək olar. Bu isə Azərbaycanın davamlı və dayanıqlı inkişafının məntiqi davamı olub, onun yeni fazaya daxil olması məqsədlərinə xidmət edir.

Azərbaycanı dünyada baş verən kataklizmlərdən böyük müvəffəqiyyətlə çıxarmağı bacaran cənab İlham Əliyevin 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkə rəhbəri kimi fəaliyyətinin əvvəlki dövrlərində qazandığı hərtərəfli nailiyyətlərin məntiqi nəticəsi, xalqının onun fəaliyyətinə verdiyi yüksək qiymət, ona ümumxalq məhəbbətinin daha bir bariz nümunəsi idi. Heç şübhəsiz, Prezident cənab İlham Əliyevin inkişaf və quruculuq siyasəti bundan sonra da ölkəmizə daha böyük nailiyyətlər qazandıracaq.

Dövlətimizin başçısı öz çıxışlarında dəfələrlə bəyan edib ki, həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sosial istiqamət indi də prioritetdir və dünyada yaşanan iqtisadi tənəzzülün Azərbaycan əhalisinin rifahına ciddi təsir etməməsi üçün lazımi preventiv addımlar atılır. Möhtərəm Prezidentimiz çıxışında qeyd etmişdir ki: **"2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".**

Büdcə xərclərinin davamlı olaraq artdığı istiqamətlərdən biri də müdafiə və təhlükəsizlik sahəsidir. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatında baş verən yeni keyfiyyət dəyişiklikləri fonunda ilk növbədə ölkəmizin müdafiə potensialının qüdrətlənməsi daha aydın görünür. İqtisadiyyatın güclənməsi hərbi imkanların artması üçün geniş imkanlar açır. Çünki iqtisadiyyatı güclü dövlətin ordusunun güclü olması qaçılmaz zərurətdir. Ölkəmizdə baş verən sürətli inkişaf Silahlı Qüvvələrimizin güclənməsinə və modernləşməsinə özünün müsbət təsirini göstərdi.

Bu nailiyyətlər Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılmış genişmiqyaslı islahatların nəticəsində qazanılıb. Dövlətimizin başçısı infrastruktur və insan kapitalını inkişaf etdirməklə Azərbaycanın dünyadakı mövqelərinin gücləndirilməsini, struktur islahatları aparmaqla ölkənin tarazlı inkişafını təmin edir.

Ölkəmizdə aparılan islahatların tərkib hissəsi olaraq Prezident İlham Əliyevin 13 fevral 2012-ci il tarixli Fərmanı ilə yaradılmış Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində (SHXÇDX) də istər idarəetmə mexanizminin təkmilləşdirilməsi, istər qanunvericilik, istərsə də onun tətbiqi ilə bağlı dövlət tərəfindən bir sıra ciddi addımlar atılıb. Çağırış və səfərbərlik resurslarını tənzimləyən mükəmməl mexanizmin yaradılması istiqamətində zəruri tədbirlər görülüb.

SHXÇDX müstəqil mərkəzi icra hakimiyyəti orqanı kimi bir növ Silahlı Qüvvələrlə cəmiyyət arasında körpü rolunu oynayır və 7 ildir ki, bu vəzifələri müvəffəqiyyətlə icra etməklə dövlətin və vətəndaşların xidmətindədir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qarşısına vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı, həqiqi hərbi xidmətə çağırışı, ehtiyatda xidmət keçməsi, səfərbərlik hazırlığı və səfərbərlik üzrə çağırışı, xüsusi hərbi ixtisaslar üzrə hazırlığı, Silahlı Qüvvələrimizin sülh dövründə çağırışçılarla, səfərbərlik zamanı və müharibə dövründə hərbi vəzifəlilərlə və hərbi-nəqliyyat vasitələri ilə, eləcə də mülki heyət vəzifələrində işləmək üçün vətəndaşlarla komplektləşdirilməsi sahələrində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi kimi mühüm vəzifələr qoyulub. Xidmət müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata keçirilməsini təmin edir və həmin sahədə aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, proseslərə dövlət nəzarətini həyata keçirir. Son 7 ildə bu istiqamətdə əhəmiyyətli nəticələr əldə edilib. Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti mühüm inkişaf yolu keçib, ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini verib.

Ötən dövrdə SHXÇDX tərəfindən Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində təşkil edilmiş ehtiyatda olan zabit və gizir hazırlığı, həmçinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursunun dəyişən heyətlə komplektləşdirilməsi üçün namizədlərin göndərilməsi də müvəffəqiyyətlə təmin olunub. Hazırda Azərbaycan Silahlı Qüvvələrinin ən son elmi nailiyyətlərin bəhrəsi olan müasir hərbi-texniki bazası və bu texnikanı işlətməyə, ən əsası, hərbi birləşmələrlə istənilən döyüşdən qalib çıxmağa qadir olan şəxsi heyəti var.

Xidmət öz fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanizm və hərb quruculuğunun təşkili prinsipləri əsasında qurur. Vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, Xidmətin daha bacarıqlı və savadlı kadrlarla təmin edilməsi, maddi-texniki bazanın gücləndirilməsi və digər sahələrdə də görülmüş bir sıra tədbirlər səmərəli nəticələr verir. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsi, vətəndaş məmnunluğunun təmin olunması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindəndir. Bu gün Xidmətin "Vahid elektron informasiya sistemi" və elektron xidmətlərin göstərilməsi, ölkəmizdə vətəndaşların həqiqi hərbi xidmətə çağırış sistemi əsaslı şəkildə təkmilləşdirilib. Çağırışçıların hərbi uçotunun dəqiq və düzgün aparılmasına nəzarət artırılıb, şəffaflığın təmin edilməsi, vətəndaşlarla maneəsiz və birbaşa əlaqənin qurulması məqsədilə Xidmətin internet saytı və sosial şəbəkə hesabları yaradılıb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytı (www.seferberlik.gov.az) iki dildə (Azərbaycan və ingilis dillərində) yenidən müasir standartlara uyğun olaraq hazırlanıb və istifadəyə verilib. "Facebook" və "Twitter" üzərindən məlumatların infoqrafik imkanlardan istifadə edilməklə çatdırılması, daxil olan müraciətlərin cavablandırılması və "Youtube" kanalının videomateriallarla zənginləşdirilməsi istiqamətində sistemli fəaliyyət həyata keçirilib.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə komplektləşdirilməsi işinin daha da təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Bu gün çağırışçılara müddətli həqiqi hərbi xidmətlərini hansı hərbi hissədə keçmələri ilə bağlı məlumatlar internet, həmçinin qısa mesaj vasitəsilə çatdırılır.

Nazirlər Kabinetinin qərarına uyğun olaraq "Elektron xidmət növlərinin Siyahısı"nın təkmilləşdirilməsi məqsədilə SHXÇDX-nin təqdim etdiyi elektron xidmətlər "Elektron hökumət" portalına inteqrasiya edilib. Eyni zamanda, "Hərbi xidmət keçmə barədə", "Hərbi qeydiyyatda olma barədə", "Müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun olması barədə" və "Müddətli həqiqi hərbi xidmətə göndərilmə barədə" elektron arayışların "ASAN xidmət" mərkəzlərində Xidmətin "Vahid elektron informasiya sistemi" üzərindən vətəndaşlara təqdim edilməsi təmin olunur. Həmçinin "Yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması" həyata keçirilir. Ümumilikdə, 2018-ci il ərzində **30** min **511** nəfər vətəndaş Xidmətə müraciətlərini SHXÇDX-nin "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən nümayəndələrinin vasitəsilə edib.

Azərbaycan Respublikası Prezidentinin mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin regionlarda vətəndaşların qəbulunun keçirilməsi, onların təklif, şikayət və rəylərinin öyrənilməsi, qanuni tələblərinin yerinə yetirilməsi, eyni zamanda vətəndaş məmnunluğunun təmin edilməsinə dair tapşırığının icrası ilə əlaqədar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi tərəfindən respublikanın regionlarında və Xidmətin Aparatında vətəndaş qəbulları keçirilib. Bu qəbullar zamanı bir sıra müraciətlər yerində həllini tapıb, araşdırılması tələb olunan müraciətlər qeydiyyata alınaraq icrası ilə əlaqədar müvafiq tədbirlər görülüb, Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər baxılması üçün aidiyyəti qurumlara göndərilib.

Xidmət tərəfindən gənclərin hərbi xidmətə hazırlanması, səfərbərlik işinin qurulması, çağırışçıların ordu sıralarına çağırılması, təntənəli yolasalma mərasimləri, hərbi təhsilə marağın artırılması istiqamətində güclü təbliğat və maarifləndirmə işləri aparılır. Vətəndaşlar arasında hərbi-vətənpərvərlik işinin aparılması ilə əlaqədar respublikanın ayrı-ayrı rayonlarında "Vətənin müdafiəsinə hazıram!" devizi altında silsilə tədbirlər keçirilir. 2019-cu il yanvarın 11-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikası Gənclər Fondu arasında imzalanmış əməkdaşlığa dair anlaşma memorandumu da vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, yeniyetmə və gənclərdə Vətənə məhəbbət hissinin yüksəldilməsi, milli-mənəvi dəyərlərin aşılanması, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində birgə fəaliyyətin həyata keçirilməsi üçün yeni bir platformadır.

Möhtərəm Prezidentimizin səyləri nəticəsində bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik ölkəmizə müstəqil siyasət aparmağa, Azərbaycan xalqının maraqlarının müdafiəsinə imkan verir. Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri uğurla həll olunur. Təkcə 2018-ci ildə 5800-dən çox məcburi köçkün ailəsinə yeni evlər, mənzillər verilib ki, bu da son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib.

Keçən il prezident seçkilərindən dərhal sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev daha bir humanist addım ataraq respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında 19 aprel 2018-ci il tarixli Fərman imzaladı. Sənədin icrası ilə bağlı Xidmət tərəfindən 2 avqust 1997-ci il tarixədək həlak olan hərbi qulluqçuların dəqiqləşdirilmiş siyahıları hazırlanaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunub və bu istiqamətdə işlər davam etdirilir.

SHXÇDX də öz səlahiyyətləri çərçivəsində vətəndaşlara, xüsusən şəhid ailələrinə, müharibə veteranlarına, onların müraciətlərinə həssaslıqla yanaşır, davamlı diqqət və qayğı göstərir. Ötən il "Müharibə veteranı, Silahlı Qüvvələr veteranı və Əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamənin və müvafiq vəsiqələrin nümunəsinin, eskizinin və təsvirinin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərarına uyğun olaraq, müraciət etmiş vətəndaşların sənədlərinə Xidmətdə fəaliyyət göstərən "Veteran adlarının və müvafiq vəsiqələrin verilməsi komissiyası"nda baxılıb və təsdiqedici sənədlər əsasında müraciət edənlərə müharibə veteranı adı və vəsiqəsi verilib.

SHXÇDX çağırışçıların hələ orta məktəb illərindən hərbi xidmətə hazırlığı, hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi yönündə mühüm işlər görür. İllik təqvim planına uyğun olaraq, Xidmətin yerli idarə, şöbə və bölmələri tərəfindən 17 yaşına çatmış gənclər müxtəlif ixtisaslar üzrə Xidmətin tabeliyində olan "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin filiallarında hazırlığa cəlb olunur, təhsil müəssisələrini bitirərək şəhadətnamə və sertifikatlarla təmin edilirlər. Xidmətin zonalar üzrə səfərbərlik şöbə və bölmələrinin şəxsi heyəti ilə səfərbərlik hazırlığı üzrə mütəmadi məşğələlər keçirilir, Silahlı Qüvvələrə təyin edilmiş hərbi nəqliyyat vasitələrinin texniki vəziyyəti və toplanmasının praktiki təşkili işi daim nəzarətdə saxlanılır.

Xidmətin fəaliyyəti, bütövlükdə Prezident cənab İlham Əliyevin Ordu quruculuğu sahəsində qarşıya qoyduğu məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirməyə ünvanlanıb. Ötən il 100 illiyini qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı Prezident İlham Əliyevin rəhbərliyi altında çox böyük işlər görülüb. Silahlı Qüvvələrin kadr potensialının artırılması, şəxsi heyətin bilik və bacarığının, döyüş ruhunun yüksəldilməsi, hərbçilərin sosial problemlərinin həlli dövlətin qarşıya qoyduğu prioritet məsələlərdəndir. Ümummilli lider Heydər Əliyev deyirdi: **"Müharibə etmək, sadəcə, müxtəlif istiqamətlərdən atəş açmaq deyil. Bu, mükəmməl təcrübə, təkmil hazırlıq və yüksək döyüş ruhu tələb edir".** Bu gün iftixarla deyirik ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

2018-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 ili tamam oldu. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzaladı, bu əlamətdar tarixi hadisə münasibətilə 2018-ci ili respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdi. Cümhuriyyətin yubileyi ölkəmizdə və ondan kənarda böyük təntənə ilə qeyd olundu. Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulan hərbi çağırış və səfərbərlik sistemi də ötən 100 ildə şərəfli yol keçib. Xalq Cümhuriyyəti dövründə qısa müddətdə vətəndaşların orduya çağırışı, Vətənin müdafiəsinə səfərbər olunması istiqamətində müvafiq addımlar atılıb, öz dövrünə görə yüksək döyüş qabiliyyətli nizami hərbi hissələr yaradılıb. Azərbaycan Hökumətinin 1918-ci il 3 iyul tarixli qərarı ilə 19 yaşı tamam olmuş vətəndaşlar hərbi mükəlləfiyyətin yerinə yetirilməsinə cəlb olunmağa başladılar. Daha sonra 1894-95-ci illərdə doğulmuş və islam dininə mənsub gənclərin xidmətə çağırılması barədə qərar qəbul edilib. Hökumətin 55 saylı qərarı ilə Yelizavetpol əxzi-əsgər (hərbi çağırış) idarəsi Azərbaycan Əxzi-əsgər idarəsi adlandırılıb və bütün ölkə üzrə çağırış işinin təşkili bu idarədə cəmləşdirilib.




Bu gün isə həmin qurumun layiqli varisi kimi müasir idarəetmə imkanlarına malik, peşəkar şəxsi heyətlə komplektləşdirilmiş bir Xidmət fəaliyyət göstərir. SHXÇDX hər zaman dövlət başçısının hərtərəfli qayğısı ilə əhatə olunub, qurumun şəxsi heyətinin sosial təminatının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır.

"Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında" Əsasnamə ilə müəyyənləşdirildiyi kimi, Xidmətin kadr tərkibi hərbi qulluqçulardan və işçilərdən (dövlət qulluqçularından və dövlət qulluqçusu olmayan mülki işçilərdən) ibarətdir. Xidmətin hərbi qulluqçuları "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Hərbi qulluqçuların statusu haqqında" qanunlara, "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə, Silahlı Qüvvələrin nizamnamələrinə və digər qanunvericilik aktlarına müvafiq olaraq həqiqi hərbi xidmət keçir, Silahlı Qüvvələrin hərbi qulluqçuları üçün nəzərdə tutulmuş hüquq və imtiyazlardan istifadə edirlər. Xidmətdə dövlət qulluqçularının qulluq keçməsi "Dövlət qulluğu haqqında" Qanunun, dövlət qulluqçusu olmayan mülki işçilərlə əmək münasibətləri isə Əmək Məcəlləsinin müvafiq normaları ilə tənzimlənir. Xidmətdə işçilərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların ailə üzvlərinin sağlamlıqlarının qorunması məqsədilə, "Həmkarlar ittifaqı haqqında" Qanuna müvafiq olaraq Xidmətin ilk həmkarlar ittifaqı təşkilatının təsis edilməsi təmin olunub.

Bu gün SHXÇDX-nin hər bir əməkdaşının amalı Vətənə sədaqət, göstərilən etimadı doğrultmaq, hər bir insana qayğı, ən başlıcası isə milli-mənəvi dəyərlərə hörmətdir.

Vətənpərvərlik ruhlu nəşrlər, Bakıda və bölgələrdə keçirilən "Vətənin müdafiəsinə hazıram!" adlı ənənəvi tədbirlər, sərgi-müsabiqələr, hətta KİV nümayəndələri arasında atıcılıq turnirləri görülən işlərin təsir gücünü daha da artırır.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə hazırlanan "Cümhuriyyət dövründə səfərbərlik və hərbi çağırış (1918-1920)" kitabının Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında dövlət rəsmiləri, millət vəkilləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə təqdimat mərasimi keçirilib. Həmçinin, orta ümumtəhsil məktəblərinin şagirdləri arasında "Cümhuriyyət 100 il" adlı vətənpərvərlik mövzusunda rəsm müsabiqəsi və Silahlı Qüvvələrin 100 illiyi münasibətilə atıcılıq turniri keçirilib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə "Müstəqilliyimiz əbədidir" adlı yazı müsabiqəsi, "Müstəqil Azərbaycanın memarı" adlı rəsm müsabiqəsi və ictimai birliklərin nümayəndələri arasında şahmat turniri də gənclərdə vətənpərvərlik işinin daha geniş sferada təşkilinə müsbət təsir göstərmək məqsədi ilə təşkil edilib.

"Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyəti və qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğuların, araşdırmaların keçirilməsi və nəticələrinin elan edilməsi bəndinə uyğun olaraq ötən ilin sonunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyəti ilə bağlı paytaxt Bakı şəhərində və ölkənin regionlarında sosioloji sorğu keçirilib. 18 rayon və şəhəri əhatə edən sorğu şifahi və səs yazısı ilə aparılıb. Sorğuda iştirak edən 10 000-ə yaxın sakindən 1 500 nəfəri verilən sualları səs yazısı vasitəsilə, digərləri isə şifahi şəkildə cavablandırıb. Sorğu zamanı vətəndaşlar SHXÇDX-nin fəaliyyətini yüksək qiymətləndiriblər. Sorğuda iştirak edənlər tərəfindən gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində Xidmət tərəfindən görülən işlər yüksək qiymətləndirilib. Şübhəsiz ki, ictimaiyyətlə ünsiyyət, keçirilmiş rəy sorğuları xidməti fəaliyyətimizə yenidən baxmaq üçün çox əhəmiyyətlidir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev hər zaman vurğulayır ki, hər bir məmur xalqın xidmətçisi olmalıdır. SHXÇDX-nin şəxsi heyəti də çiçəklənən respublikamızda milli maraqların qorunması istiqamətində tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsinə öz töhfəsini vermək əzmindədir.

**Arzu RƏHİMOV,**
**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant.**

# Tədrisin keyfiyyəti müasir tələblər səviyyəsindədir



Son illər Azərbaycanda bütün sahələrdə əldə edilən yüksək inkişaf və tərəqqi ölkənin təhsil sektorunda da özünü bariz şəkildə göstərir. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla həyata keçirilir. Son illər ölkəmizdə yüzlərlə yeni tipli, müasir məktəblərin tikintisi, əsaslı təmiri, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, bütün təhsil ocaqlarının kompüter texnologiyaları ilə təchiz olunması, təhsildə yeni texnologiyaların tətbiqi ölkə başçısının bu sahəyə diqqət və qayğısının sayəsində mümkün olmuşdur. Çünki hər bir ölkənin uğurlu gələcəyi cəmiyyətin intellektual potensialından asılıdır.

Bu gün Azərbaycan təhsil sistemi özünün sürətli inkişaf dövrünü yaşayır. Qəbul edilmiş proqramlar, təhsil islahatlarının nəticəsidir ki, ölkəmiz bu sahədə dünyada ən inkişaf etmiş ölkələrin sırasındadır. Təhsil sahəsində əldə olunmuş uğurlarda BŞTİ-nin tabeçiliyində fəaliyyət göstərən təhsil ocaqlarının da işini qeyd etmək lazımdır. Öz işini müasir dövrün tələbləri səviyyəsində quran məktəblərdən biri də Bakının Suraxanı rayonu ərazisində fəaliyyət göstərən 279 saylı tam orta məktəbdir. Məktəbin direktoru Südabə Abdullayeva ilə görüşüb məktəbin ötən tədris ilində əldə etdiyi təhsil uğurları barədə məlumat verməsini xahiş etdik. Direktor bizimlə söhbətində qeyd etdi ki, Azərbaycanın milli təhsil sistemi dövlət qayğısı ilə tam əhatə olunub. Ölkə rəhbərliyinə gəldiyi ilk gündən cənab Prezident İlham Əliyev bu sahəyə xüsusi diqqət və qayğısını əsirgəmir. Cənab İlham Əliyev qeyd edib ki, iqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində quran ölkələr dinamik inkişafa nail olur, dünya arenasında öz layiqli yerlərini tuturlar. Onu da vurğulayıb ki, mən çox istəyirəm ki, uşaqlarımız milli ruhda böyüsünlər. Öz ənənələrinə sadiq, dəyərli vətəndaş olsunlar. Şagirdlərimiz yaxşı məktəbdə oxusun, müəllimlərimiz yaxşı məktəbdə dərs desin.

Dövlətimiz tərəfindən təhsilə göstərilən bu diqqətin nəticəsidir ki, rəhbərlik etdiyim 279 saylı tam orta məktəbin pedaqoji kollektivi də şagirdlərin təlim-tərbiyəsi, onların milli, vətənpərvər ruhda böyümələri üçün bilik və bacarıqlarını əsirgəmirlər. Əvvəlcə onu vurğulayım ki, məktəbimiz 1987-ci ildə tikilmişdir və layihəyə əsasən şagird tutumu 1170 yerlikdir. Məktəb 2011-ci ildə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində qalib olmuşdur. Təhsil ocağında bu gün 1336 şagird təhsil alır və şagirdlərin təlim-tərbiyəsi ilə 102 müəllim məşğul olur. Məktəbdə Əməkdar müəllim adına layiq görülmüş müəllimlərlə yanaşı, elmi dərəcəsi, dərslik müəllifi olan müəllimlər də fəaliyyət göstərir. Məktəb ikinövbəlidir, 58 sinif otağı var. Məktəbdə bütün əlamətdar günlər yüksək səviyyədə tədbirlərlə qeyd olunur. Şagirdlərin yüksək şəraitdə təhsil almaları üçün 1 kitabxana, 2 kompüter zalı, 1 biologiya, 1 kimya, 1 fizika, 2 tarix kabinetimiz var.

Ötən 2018-ci tədris ilində uğurlarımız kifayət qədərdir. Belə ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində şagirdimiz Zərrin Əliyeva 3-cü yerə layiq görülüb. Qeyd edək ki, Zərrin Əliyeva skripkada ifası ilə Azərbaycanı dəfələrlə dünyada layiqincə təmsil edərək Prezident təqaüdünə layiq görülüb. İdman sahəsində də uğurlarımız var. Beynəlxalq "Alpaqut" idman növü üzrə keçirilən yarışda Sənan Bədəlov dünya üzrə bürünc, Murad Bədəlov isə gümüş medal qazanıb. 3-cü sinif şagirdi Xədicə Nağıyeva isə Gimnastika üzrə Budapeştdə keçirilmiş müsabiqədə 250 iştirakçı içərisində 6-cı yerə layiq görülüb. FHN-nin keçirdiyi müsabiqədə 8-ci sinif şagirdi İbrahim Şərifovun düzəltdiyi maket Bakı şəhəri üzrə 1-ci yeri tutmuşdur.



Vurğulayım ki, ötən tədris ilində təhsil göstəricilərimiz də uğurludur. IX sinif buraxılış imtahan göstəricilərinə görə məktəbimiz şəhər üzrə 79, ölkə üzrə 168, rayon üzrə 4 pillə irəliləmişdir. Şagirdlərimizdən 7-si Fərqlənmə Attestatı almışdır. XI sinfin məzunlarından isə 7 nəfər Fərqlənmə Attestatına layiq görülübdür. Qeyd edim ki, ötən il məktəbi qurtaran məzunlarımızın da göstəriciləri ürəkaçandır. Onlardan 3 nəfəri 600-dən yuxarı bal toplamışdır. Nərmin Abdulrəhmanlı 682 balla Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə fakültəsinə, Nigar Allahverdiyeva 608 balla Azərbaycan Diplomatiya Akademiyasının Biznesin İdarə edilməsi fakültəsinə, Şahin Əlizadə isə 609 bal toplayaraq DİN Polis Akademiyasına qəbul olmuşdur. Bunlardan əlavə, 500-dən yuxarı bal toplayaraq müxtəlif ali təhsil ocaqlarına qəbul olunmuş şagirdlərimiz kifayət qədərdir. Bunlardan Aytac Səmədova 560 balla - Azərbaycan Dövlət Pedaqoji Universitetinə, Əli Şükürlü 502 balla - Azərbaycan Milli Aviasiya Akademiyasına, Hökümə Həsənzadə 530 balla - Xəzər Universitetinin ingilis dili fakültəsinə və s.

Bu uğurların əldə olunmasında əməyi çox olan müəllimlərimiz kifayət qədərdir. Bunlardan tarix müəllimi, respublikanın Əməkdar müəllimi Ofelya Musayeva, Əməkdar müəllim Esmira Məmmədova, Xatirə Əliyeva, Təranə Rəcəbova, Ülviyyə Süleymanova (coğrafiya müəllimi), təşkilatçı-müavin Qızbəs Qasımova, Afaq Səfərova-Uşaq Birliyinin rəhbəri, Vanapayeva Raisa-rus dili və ədəbiyyatı müəllimi, yerli komitənin sədri Tamella Vəliyeva, rus dili müəllimi-İpək Abdullayeva, gənc müəllimlərdən Kəmalə İsgəndərova, Məftunə Kərimli, Kəmalə Məmmədova, Lətafət Şirinova, idman müəllimlərindən Nihalə Hüseynova və Nəzrin Heydərli öz işlərinə çox kreativ yanaşırlar. Öz işinə yüksək məsuliyyət hissi ilə yanaşan müəllimlərimizdən biri də məktəbin rus dili və ədəbiyyat müəllimi Rəna Vahidovadır. X d sinif rəhbəri Rəna müəllimə bizimlə söhbət əsnasında qeyd etdi ki, rus dilinin inkişafı, əhalinin yaradıcılıq potensialının rus dilində həyata keçirilməsi üçün respublikamızda bütün şərait yaradılmışdır. Azərbaycanın əksər təhsil ocaqlarında olduğu kimi, bizim məktəbdə də rus dilində təhsil almaq istəyənlərin artımı dinamikası müşahidə olunur. Rus dilinə artan marağın daha da möhkəmlənməsi üçün biz də daimi olaraq treninqlərdə iştirak edir, müxtəlif təcrübə və təlim metodlarına yiyələnirik. Bu yaxınlarda Rusiya mədəniyyət-məlumat mərkəzində keçirilmiş treninqlərdə, rus yazıçılarının yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmişik.



Məktəbimizdə Azərbaycan mədəniyyətinin və dəyərlərinin təbliğinə həsr olunmuş müxtəlif tədbirlər həyata keçirilmişdir. Şagirdlərimizin maraqla iştirak etdiyi rus yazıçılarının əsərlərinə həsr olunmuş səhnəciklər http://youtu.be/Uxc69icmsnc, http://youtu.be/hsdaAqroJgg, Azərbaycanın milli qəhrəmanlarına həsr olunmuş təqdimatlar bu istiqamətdə aparılan işlərin tərkib hissəsidir. Şagirdlərimiz rus dilinin təbliğ və tətbiqinə həsr olunmuş tədbir və olimpiadalarda aktiv iştirak edirlər. Buna misal olaraq Rusiya səfirliyinin təşkil etdiyi Respublika Olimpiadasını göstərmək olar. Fərəhləndirici haldır ki, şagirdlərimiz buraxılış imtahanlarında öz bilik və bacarıqlarını layiqincə nümayiş etdirmişlər.

*M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu bitirib. 1989-cu ildən Bakı şəhəri Suraxanı rayonu 279 nömrəli məktəbdə çalışır. İşlədiyi müddət ərzində Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkil eydiyi ixtisasartırma kurslarında iştirak etmiş, sertifikatlar almışdır. Rus dili tədrisinin metodikasına aid elmi-tədqiqat işimin nəticələri Azərbaycan Ali Attestasiya Komissiyasının nüfuzlu jurnal kimi tanıdığı "Dil və ədəbiyyat" jurnalında çap olunmuşdur. Rus dili və ədəbiyyatının tədrisinə dair apardığım tədqiqat işlərimin nəticələri dəfələrlə Fransa Respublikasının Nant Universitetində və Çexiya Respublikasının Masaryuk Universitetində tədris alan tələbələrlə görüşdə məruzə edilmişdir.*

Hazırda internetin hədsiz imkanlarından yararlanaraq təşkil olunan virtual kurs və seminarlarda iştirak edir və öz həmkarlarımla fikir mübadiləsi aparıram.

**Əli SADIQOV,**
**"Respublika".**

# Sənaye əhəmiyyətli qızıl yatağını kəşf edən geoloq



*Həyatda hər kəs bir sənətə, peşəyə yiyələnir. Amma öz işinin ustası olmaq hər kəsə nəsib olmur. Vasif Xəlilzadənin ömür yoluna nəzər saldıqda isə bu qənaətə gəlirik ki, o, seçdiyi geoloq sənətinə nəinki mükəmməl yiyələnib, bu sənətin ən yüksək zirvəsini fəth edib.*

## Daş içində qızıl yatağının kəşfi və ya saf qəlbli insan

Azərbaycanın Əməkdar geoloqu Vasif Qurban oğlu Xəlilzadə 1932-ci ildə Bakıda ziyalı ailəsində dünyaya göz açmışdı. Geoloq sənətini seçməsi bəlkə də Vasifin doğma Vətənin təbiətinə, daşına, torpağına, dağlarına, qayalarına vurğunluğundan, yaradıcı təbiətindən irəli gəlirdi. 1955-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsini bitirdi. Geoloji axtarışlardan yorulmayan Vasif kiçik qardaşı, Rəssamlıq Məktəbində oxuyan Fərhadı da özü ilə aparırdı.

Azərbaycanın Xalq rəssamı Fərhad Xəlilov AZƏRTAC-ın müxbiri ilə söhbətində o illəri xatırlayaraq deyib: "Qardaşım Vasif gəncliyində həm geoloq idi, həm alpinist. Dağların vurğunu idi. Mən deyərdim ki, bu da bir növ rəssam işidir".

Vasif Xəlilzadənin geoloji tapıntılarının biri Azərbaycan geologiyasında mühüm hadisə oldu. İlk dəfə olaraq qızılı daş içində o tapmışdı. Lakin qızıl kimi saf qəlbə malik geoloq bu kəşfini rəsmiləşdirmək barədə düşünmədi və həmin tapıntıdan əldə yalnız süxurun şəkli qaldı. Vasif Xəlilzadə 1959-cu ildə Azərbaycanda ilk dəfə olaraq gözlə görünən Veynəli köklü, sənaye əhəmiyyətli qızıl yatağını kəşf edənlərdən biri olub.

## Sovet dövründə rəsmiləşdirilmiş 7 elmi ixtira

Vasif Xəlilzadə əmək fəaliyyətinə 1954-cü il iyulun 5-də Azərbaycan Respublikası Nazirlər Sovetinin Geologiya İdarəsində baş kollektor-geoloq vəzifəsində başlayıb. Sonralar Azərbaycan SSR Elmlər Akademiyasının Geologiya İnstitutunda baş laborant, kiçik elmi işçi, Geologiya İdarəsində geoloji partiyaların baş geoloqu, rəis vəzifələrində çalışıb.

Onun elmi fəaliyyəti əsasən respublika ərazisində yerin təkində olan təbii mineralların öyrənilməsi, onların istehsala verilməsinin hazırlanması idi. Sovet dövründə Vasif Xəlilzadənin 7 ixtiranın müəllifi olduğu rəsmən təsdiqlənmişdi. Bu sıraya "2-metilpentenanın alınması üsulu", "Tsikloheksananın alınması üsulu", "Gübrənin alınması üsulu", "Tərkibində mikroelementlər olan sadə superfosfatın alınması üsulu", "Şpaklyovka", "Qazların kükürd oksidindən təmizlənməsi üsulu", "Fosfor-kaliumlu gübrənin alınması üsulu" patentləri daxildir. Bu ixtiralara müəlliflik şəhadətnaməsi SSRİ kimi böyük dövlətin ərazisinə şamil olunurdu.

## Azərbaycanın Əməkdar geoloqu

Vasif Xəlilzadə Azərbaycan SSR Dövlət Plan Komitəsinin dağ-mədən və metallurgiya sənayesi, geologiya və metallurgiya sənayesi, mineral ehtiyatları, sular və ekologiya şöbələrində baş mütəxəssis, əsasən isə şöbə rəisi vəzifələrində çalışıb. 1977-ci ilin dekabrından 1978-ci ilin dekabrınadək SSRİ Dövlət Plan Komitəsi işçi qrupunun üzvü kimi Yəməndə ezamiyyətdə olub. 1981-ci ildə Azərbaycanın Əməkdar geoloqu fəxri adına layiq görülüb.

Ümumiyyətlə, istər sovet dövründə, istərsə də müstəqillik illərində Vasif Xəlilzadə bir çox mükafatlarla təltif edilib. Bu sırada Aydağ yatağında təbii seolitin fiziki-kimyəvi və katalitik tədqiqinə və 1978-ci ildə müsabiqədə iştirakına görə fəxri fərmanı, anadan olmasının 50 və 75 illiyi, eləcə də əmək fəaliyyətinin 50 illiyi münasibətilə fəxri fərmanları, "Əmək veteranı" medalını, SSRİ Geologiya Nazirliyinin "Yer təkinin kəşfiyyatı" medalını, "Ətraf mühitin çirklənməsinin qarşısının alınmasında ən yaxşı texniki və təşkilati həll üçün" diplomunu və digər təltifləri qeyd etmək olar.

## Onu hamı sevirdi

Yaxşı mütəxəssisə həmişə ehtiyac olur. Vasif Xəlilzadə pensiyaya çıxandan sonra 1994-cü ildə onu "Azərqızıl" Dövlət Şirkətində iqtisadiyyat və maliyyə şöbəsinin rəisi vəzifəsinə dəvət etdilər. Sonralar "YUJSNİQRİ" elmi-tədqiqat layihə institutunun direktorunun birinci müavini oldu. "Azərqızıl" şirkətinin ləğvi ilə əlaqədar Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinin tabeliyinə verilmiş "YUJSNİQRİ" elmi-tədqiqat institutunun direktorunun birinci müavini vəzifəsinə təsdiq edildi.

2002-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat Layihə, Nəcib, Nadir və Əlvan Metallar İnstitutu ("YUJSNİQRİ") Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mineral Xammal Elmi-Tədqiqat İnstitutu adlandırıldı. Vasif Xəlilzadə institutda 2002-2012-ci illərdə direktor müavini, elmi işçi, 2017-ci ilədək faydalı qazıntıların proqnozlaşdırılması laboratoriyasının aparıcı elmi işçisi vəzifələrində çalışdı. 2007-ci ildə Beynəlxalq Ekoenerji Akademiyasının geologiya üzrə professoru dərəcəsini aldı.

O, institutun geoloji, geo-texnoloji, geo-iqtisadi, geo-ekoloji, dağ-mədən işlərinin aparılmasına nəzarət etməklə yanaşı, yeni tematik planların seçilməsində fəal çalışırdı. Ayrı-ayrılıqda aparılan tematik işlərin, 50-dən çox elmi hesabatın həmmüəllifi olan Vasif Xəlilzadə daim axtarışlar, kəşflər, yeni ixtiralar sorağında idi. Layihələri çox idi. Yeri gəlmişkən, 2004-cü ildə AZƏRTAC-a müsahibəsində seolit yataqları ilə bağlı fikirlərini bildirmişdi.

İnfarkt keçirdikdən sonra 2017-ci ildə institut rəhbərliyinin təkidinə baxmayaraq, əmək fəaliyyətini dayandırdı. 2018-ci ilin dekabrında vəfat edən Vasif Xəlilzadə həyata keçirə bilmədiyi nə qədər layihəni özü ilə apardı.

Qardaşı Fərhad Xəlilov deyir ki, ailədə nə özü, nə də o biri qardaşı Vasif kimi olmayıb: "Ailəmizdə əsl ziyalı Vasif idi. Çox genişürəkli insan idi. Olduqca xeyirxah idi, incə qəlbi vardı, hər kəsə yaxşılıq etməyi özünə borc bilirdi".

Vasif Xəlilzadənin ömür-gün yoldaşı Rəhilə xanım isə onun yoxluğu ilə barışa bilmir, hətta təsəlli üçün həyat yoldaşının ona azacıq olsa belə laqeyd, sərt münasibətini xatırlamır. Sədaqətli ər, qayğıkeş ata, gözəl qayınata, sevimli baba, əvəzedilməz qardaş olan Vasif Xəlilzadənin yoxluğu bu ailə üçün böyük itkidir.

Onun evinin qapıları hər kəsin üzünə açıq idi. Onu hamı - ailəsi, qohumlar, dostlar, tanışlar, iş yoldaşları çox sevirdilər.

**AZƏRTAC**

# ŞƏMKİRDƏ UŞAQ BAĞÇASI ƏSASLI TƏMİRDƏN SONRA İSTİFADƏYƏ VERİLDİ

Şəmkir rayonunun Keçili kəndində yerləşən 85 yerlik 2 saylı körpələr evi-uşaq bağçası "BP Azerbaijan" şirkətinin dəstəyi ilə əsaslı təmir və yenidənqurmadan sonra körpələrin istifadəsinə verilib.

Açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov bildirib ki, bu gün ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət göstərilir. Prezident cənab İlham Əliyevin qayğısı sayəsində indi ölkəmizin hər yerində müasir uşaq bağçaları, uşaq evləri inşa olunur, zəruri avadanlıqla təchiz edilir.

"BP Azerbaijan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışında bildirib ki, bu cür layihələrin icra edilməsi, ümumilikdə, uşaqların sosial müdafiəsinin gücləndirilməsində, onların bilikli, savadlı və intellektual şəxsiyyət kimi formalaşmasında vacib rol oynayır.

Bağçada yaradılan şəraitlə tanışlıq zamanı Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov və "BP Azerbaijan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli və digər qonaqlar körpələrlə söhbət edib, onların sevincinə şərik olublar.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Gənc nəsil sağlam ruhda böyüməlidir





Bu günlərdə Xətai rayonundakı 257 saylı məktəbdə Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2013-cü il tarixli 2966 №-li Sərəncamı ilə təsdiq olunmuş "2013-2018-ci illər üçün narkomaniyaya qarşı mübarizə ilə əlaqədar Dövlət Proqram"ına uyğun olaraq "Narkomaniyaya yox deyək" mövzusunda böyük tədbir keçirilmişdir. Tədbirdə Xətai Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Muradəli Babayev, Xətai Rayon Polis İdarəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı İdris Məhərrəmov, Xətai Rayon Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin inspektoru, polis mayoru Fərid Əhədov, Xətai Veteranlar Şurasının sədri Nazim Xıdırov və şuranın üzvü Faiq Ağayev iştirak etmişdir.

Məktəbin direktoru Qarat Qaratov qonaqları salamlayaraq tədbirin əhəmiyyətindən danışdı. Bildirdi ki, əsrin bəlası olan narkomaniya problemi bütün dünyada olduğu kimi, Azərbaycanda da mövcuddur. Son illərdə dünyada narkotiklərə nəzarət, narkomaniya ilə mübarizə istiqamətində bir sıra ciddi tədbirlər görüldüyünü deyən Qarat müəllim ümumbəşəri bir problemə çevrilən narkomaniyanın fəsadlarından söz açdı. Q.Qaratov narkomaniya ilə mübarizədə ən effektiv vasitələrdən biri kimi maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin və buna məhz təhsil müəssisələrində daha geniş yer verilməsinin vacibliyini vurğuladı.

Tədbirdə çıxış edən Xətai Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Muradəli Babayev bildirdi ki, ölkədə narkotik vastələrdən istifadənin qarşısının alınması istiqamətində müxtəlif qanun və dövlət proqramları qəbul olunub və həyata keçirilir. Bununla yanaşı, respublikamızda narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizənin gücləndirilməsinə xidmət edən qanunvericilik bazasının təkmilləşdirilməsinə, beynəxalq əməkdaşlığın genişləndirilməsinə böyük diqqət yetirilir.

Məktəbin direktoru Qarat Qaratov və qonaqlar yuxarı sinif şagirdlərinə öz tövsiyələrini vermişlər. Çıxış edənlər qeyd etmişlər ki, tədbirin keçirilməsində əsas məqsəd ölkədə narkomaniyaya qarşı birgə mübarizəni gücləndirmək və bu sahədə maarifləndirmə işinin artırılmasıdır. Əsrin bəlası olan narkomaniyaya qarşı mübarizə aparmaq üçün cəmiyyətin bütün üzvlərinin bu işə qoşulması, zəif iradəli uşaqlar, gənclər arasında söhbətlərin aparılması vacibdir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# UNEC-in Türk Dünyası İqtisad Fakültəsinə yeni dekan təyin olundu

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Türk Dünyası İqtisad Fakültəsinə (TUDİFAK) yeni dekan təyin olunub.**

UNEC-in rektoru, professor Ədalət Muradov Türk Dünyası Araşdırmaları Vəqfinin sədri Közhan Yazgan və TUDİFAK-ın yeni türk dekanı, Prof. Dr. Hayati Beşirli ilə görüşüb.

UNEC-in ölkənin Türkiyə türkcəsində təhsil verən yeganə ali təhsil müəssisəsi olduğunu diqqətə çatdıran Ə.Muradov TUDİFAK-ın keyfiyyətli təhsil və tədrisi ilə hər zaman öndə olduğunu bildirib. Fakültədə yerli müəllimlərlə yanaşı, Türkiyədən dəvət olunan professorların tədrisə cəlb olunduğunu bildirən rektor, yeni tədris ilində 8 gənc müəllimin də TUDİFAK-da pedaqoji fəaliyyətə başladığını vurğulayıb. Rektor UNEC-in beynəlxalq əlaqələri və ikili diplomlarından da söz açıb. UNEC-də Avropanın aparıcı universitetləri ilə bakalavr və magistr pilləsi üzrə ikili diplom proqramlarının reallaşdırıldığını bildirən Ə.Muradov Türkiyə universitetləri ilə də bu istiqamətdə əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğulayıb. Rektor gələcəkdə TUDİFAK bazasında türk dünyası üçün iqtisadçı kadrlar yetişdirən universitetin yaradılmasının UNEC-in strateji hədəfləri sırasında olduğunu deyib.

Hayati Beşirli Azərbaycanın ən böyük iqtisadyönümlü universitetində çalışacağından məmnunluğunu ifadə edərək, türk dilində yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanması, universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi, tədrisin keyfiyyətinin daha da artırılması istiqamətində yeni nailiyyətlərə imza atılacağına əminliyini ifadə edib.

Görüşdə TUDİFAK-da Türkiyə universitetləri ilə əlaqələrin genişləndirilməsi, türk dilində dərsliklərin alınması və digər mövzularda fikir mübadiləsi aparılıb.

Sonda Ə.Muradov Hayati Beşirliyə UNEC-də yeni dekanlıq fəaliyyətində uğurlar arzulayıb.

**Hayati Beşirli haqqında:** *Hayati Beşirli Hacettepe Universitetinin sosiologiya ixtisasını bakalavr üzrə bitirib. 1998-ci ildə həmin universitetdən sosiologiya ixtisası üzrə magistratura, 2003-cü ildə isə doktorantura dərəcəsi üzrə məzun olub. H.Beşirli Hacettepe, Sakarya, Qazi və Manas universitetlərində pedaqoji fəaliyyətlə məşğul olub, kafedra müdiri, Magistratura və Doktorantura mərkəzinin direktoru vəzifələrində çalışıb. Türkiyədə və xaricdə türkoloji, sosial elmlər, mədəniyyətlərarası qarşılıqlı əlaqələr, qloballaşma, regional inteqrasiya və digər mövzulara həsr olunan beynəlxalq konfranslarda çıxış edib. Türkiyənin nüfuzlu dərgilərində çoxsaylı elmi məqalələri dərc olunub. Hayati Beşirli müəllifi olduğu "Türk Cumhuriyetleri Öğrencilerinin Türk Dünyasına Bakışları" kitabına görə Türk Dünyası Yazarlar ve Sənətçilər Vəqfinin (TÜRKSAV) mükafatını qazanıb. Ankara Hacı Bayram Veli Universitetində professor olub.* ■

# "Valideynin məktəbdə bir günü" layihəsi

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "Valideynin məktəbdə bir günü" adlı layihənin həyata keçirilməsi davam edir. Layihənin təşkil olunmasında əsas məqsəd valideynləri övladlarının təhsil aldıqları tədris ocaqları ilə yaxından tanış etmək, istər infrastruktur, istərsə də tədris prosesinin təşkili istiqamətində onları məlumatlandırmaq, valideynlərlə məktəb arasında ünsiyyət platformasını daha da genişləndirməkdən ibarətdir. 2018-2019-cu tədris ili ərzində layihə çərçivəsində keçirilməsi nəzərdə tutulan görüşlərdə ibtidai (I-IV), orta (V-VIII) və yuxarı (IX-XI) sinif şagirdlərinin valideynləri övladlarının oxuduqları məktəbləri ziyarət edəcəklər. Görüş zamanı valideynlər məktəb mühiti ilə tanış olacaq, onlara məktəbin fəaliyyəti, tədris prosesi barədə ətraflı məlumat veriləcək. Valideynlərin məktəb mühitinə göstərə biləcəkləri töhfələrlə bağlı rəyləri, təklifləri dinləniləcək və tədris prosesinin təşkilinin daha da təkmilləşdirilməsi ətrafında səmərəli fikir mübadiləsi aparılacaq.

Bundan əlavə, Təlimə Dəstək Mərkəzinin metodistləri tərəfindən valideynlər üçün sessiyalar təşkil olunacaq. Valideynlərə təşəbbüskar və daha fəal olmaq, eləcə də müəllim-şagird-valideyn birliyinin əhəmiyyəti haqqında tövsiyələr veriləcək.

Eyni zamanda valideynlərin iştirakı ilə tədris prosesini izləmək üçün dərs müşahidələri də keçiriləcək.

**Əli SADIQOV,**
**"Respublika".**

# Sumqayıtda Milli Qəhrəman Qorxmaz Eyvazovun xatirəsi anılıb

**Sumqayıtdakı Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı, şəhid Qorxmaz Eyvazovun anım mərasimi keçirilib. Tədbir Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin təşkilatçılığı ilə reallaşıb.**






AZƏRTAC xəbər verir ki, əvvəlcə şəhidin ailə üzvləri və tədbir iştirakçıları Sumqayıtın Şəhidlər xiyabanında Milli Qəhrəmanın məzarını ziyarət edib, ruhuna dualar oxuyublar.

Anım tədbiri 400-ə yaxın şəhidin uyuduğu şəhər memorial kompleksində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olan qəhrəman övladların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

Mərasimin aparıcısı, yazıçı-ssenarist Hafiz İmamnəzərli Qorxmaz Abış oğlu Eyvazovun qısa, lakin mənalı və şərəfli həyat yolu barədə məlumat verib. Bildirilib ki, 1967-ci il aprelin 1-də Laçın rayonunun Güləbird kəndində dünyaya göz açan Qorxmaz cəmi 27 il yaşayıb. O, Horadiz əməliyyatında göstərdiyi şücaətə görə Ali Baş Komandan Heydər Əliyev tərəfindən qol saatı ilə mükafatlandırılıb. 1994-cü il fevralın 10-da Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olub. Məhz həmin döyüşdə Azərbaycan Ordusu düşmən tapdağı altında olan torpaqlarımızın bir hissəsini, o cümlədən Cocuq Mərcanlını azad edib. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə 1995-ci ildə Qorxmaz Eyvazova Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Bildirilib ki, Cocuq Mərcanlı azad edilsə də, strateji Lələtəpə yüksəkliyi düşməndə olduğuna görə orada yaşamaq mümkün deyildi. 2016-cı ilin Aprel döyüşlərində qəhrəman Azərbaycan əsgəri Lələtəpəni düşmən əsarətindən qurtarıb və bu gün həmin strateji yüksəklikdə Azərbaycan bayrağı dalğalanır. Cocuq Mərcanlıda isə həyat qaynayır.

Sonra şəhidin qardaşı Zahid Eyvazov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər filialının sədri Tərlan Hacızadə, Sumqayıt Şəhər İcra Hakimiyyətinin məsul işçisi Fərman Kazımov, Laçın rayon ictimaiyyətinin nümayəndəsi Qəzənfər Hüseynov, şəhid atası Azad Məmmədov, Milli Qəhrəman Zabir Quliyev, Aprel döyüşlərinin iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant Ruslan İmamquliyev, Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt şəhər bölməsinin sədri, şair Gülnarə Cəmaləddin, gənc şair Zahir Abbas və digərləri Aprel döyüşlərindən, Azərbaycan əsgərinin qüdrətindən söz açıb, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə güclənən Silahlı Qüvvələrimizin bu gün regionda ən qüdrətli ordu olduğunu diqqətə çatdırıblar.

Çıxış edənlər bu tədbirin əhəmiyyətindən danışaraq, Qorxmaz Eyvazov haqqında xatirələrini bölüşüblər. Qorxmaz Eyvazovun ömrünün gənclərə örnək olduğu vurğulanıb.

Uşaq kitabxanasının dərnək üzvlərinin təqdim etdikləri şeirlər tədbirə xüsusi rəng qatıb.

Sonda Milli Qəhrəmanın oğlu, polis baş leytenantı Asəm Eyvazov atasının bayraq, dövlət uğrunda şəhid olduğuna görə qürur duyduğunu deyib. O, anım tədbirinin təşkilinə görə ailə üzvləri adından minnətdarlığını bildirib.

**AZƏRTAC**

# VERGİ ÖDƏYİCİLƏRİ İLƏ GÖRÜŞ





Azərbaycan Respublikası Vergi Məcəlləsinə və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş əlavə və dəyişikliklərlə əlaqədar 6 saylı Ərazi Vergilər İdarəsi cənub bölgəsinin rayonlarında vergi ödəyiciləri ilə maarifləndirici tədbirlər keçirmişdir.

Növbəti tədbir Lerik şəhərinin Heydər Əliyev Mərkəzində təşkil olunmuşdur. **6 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin rəhbəri, vergi xidməti müşaviri Eldəniz Kərəmov** vergi ödəyicilərinə məlumat verərək bildirmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasəti iqtisadiyyatın bugünkü tələblərinə uyğun təkmilləşdirilir.

Sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyinə mühüm dəyişikliklər edilmişdir. Dəyişikliklər əsasən 5 istiqaməti - sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsini əhatə edir.

İqtisadiyyatın şəffaflaşdırılması və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması məqsədilə Vergi Məcəlləsinə edilən dəyişikliklər əsasən özəl sektorda çalışan işçilərin əmək haqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması, malların sənədsiz dövriyyəsinə, xərclərin rəsmiləşdirilməməsinə görə maliyyə sanksiyalarının tətbiqi, bir sıra sahələrdə vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır.

E.Kərəmov bildirmişdir ki, vergi qanunvericiliyinə edilmiş ən mühüm dəyişiklik kimi qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əmək haqlarından tutulan vergilər üzrə vergi güzəştlərinin tətbiqini qeyd etmək olar. Burada əsas hədəf "kölgə iqtisadiyyatı"nın həcminin azaldılması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, iqtisadi fəallığın, xüsusilə, qeyri-neft sektorunun özəl bölməsində işgüzar aktivliyin daha da canlanması və sürətləndirilməsi, vətəndaşların hüquqlarının dolğun şəkildə təmin edilməsidir.

Bundan başqa, Vergi Məcəlləsinə edilən dəyişikliklərdə pərakəndə ticarət və ictimai iaşə sektorunda dövriyyənin rəsmiləşdirilməsində ictimai nəzarətin gücləndirilməsi, istehlakçıların stimullaşdırılması məqsədilə istehlakçılar tərəfindən belə obyektlərdə xərclənən vəsaitlərin ƏDV-sinin müəyyən hissəsinin istehlakçılara geri qaytarılması nəzərdə tutulub.

İstehlakçılar tərəfindən pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə (neft və qaz məhsulları istisna olmaqla) ödənilmiş ƏDV-nin nağdsız ödənişlərdə 15 faizi, nağd ödənişlərdə isə 10 faizi nəzarət-kassa aparatının çeki əsasında istehlakçılara geri qaytarılacaqdır. İstehlakçı fiziki şəxslərin bu qaydada stimullaşdırılması həm şəffaflığın təmin edilməsi baxımından, həm də vergi ödəyicilərinin ƏDV-nin ödəyicisi kimi fəaliyyət göstərmələrinə müsbət təkan verəcəkdir.

Vergitutma bazasının genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə edilən dəyişikliklərə vergi uçotunda olmayan şəxslərdən nağd qaydada alına bilən mallara görə aparılan ödənişlərin ödəmə mənbəyində vergiyə cəlb edilməsi, sadələşdirilmiş verginin ödəyicilərinin əhatə dairəsinin məhdudlaşdırılması, aksizli və məcburi nişanlanmalı malların dövriyyəsinə səmərəli vergi nəzarəti mexanizminin qurulması, aksizli malların siyahısının genişlənməsi (energetik içkilər, elektron siqaret üçün maye) və aksiz dərəcələrinin artırılması və s. daxildir.

Yeni müddəalara əsasən sadələşdirilmiş vergitutuma metodunu tətbiq etmək hüququ olan şəxslərin dairəsi məhdudlaşdırılıb. Vergi ödəyicisi hüququ məhdudlaşdırılanlar növbəti ildən mənfəət (gəlir) vergisinin ödəyicisi kimi fəaliyyət göstərəcəklər.

**İdarənin vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin dövlət vergi müfəttişi, kiçik vergi xidməti müşaviri Malik Xosrovov** Vergi Məcəlləsinə vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə bir sıra dəyişikliklərin edildiyini bildirib. Məsələn, məcəllədə yeni nəsil nəzarət-kassa aparatlarının quraşdırılması, vergi ödəyicisinin iqtisadi maraq mərkəzinin olduğu yer üzrə uçota alınması, elektron qaiməfaktura verməli olan şəxslərin əhatəsinin dəqiqləşdirilməsi, ƏDV-nin əvəzləşdirilməsi mexanizminin təkmilləşdirilməsi və digər dəyişikliklər öz əksini tapıb.

Bundan əlavə məcəlləyə vergi güzəştlərinin iqtisadi səmərəsinin yüksəldilməsi məqsədilə də dəyişikliklər edilib. Mühüm dəyişikliklərdən biri vergi güzəştləri əldə edən şəxslərə malların dövriyyəsinin uçotunun aparılmadığı hallarda maliyyə sanksiyalarının tətbiq edilməsidir.

Vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və sahibkarlığın inkişafının dəstəklənməsinə xüsusi önəm verilir. Sadələşdirilmiş vergi dərəcəsinin ölkə ərazisində 2 faizə endirilməsi, pərakəndə ticarət və iaşə sahələrində nağdsız ödənişlər üzrə güzəştlərin verilməsi və inzibati şikayət zamanı bank hesabından və ƏDV-nin depozit hesabından pul vəsaitinin silinməsinin dayandırılması bu istiqamət üzrə edilən dəyişikliklərdir.

Cari ildən mikro və kiçik sahibkarlıq subyektlərinin balanslarında olan əsas vəsaitlər üzrə sürətli amortizasiya normaları tətbiq ediləcəkdir. Vergi Məcəlləsinə kiçik sahibkarlıq subyektlərinin öz təsisçilərinə (paycılarına) ödədikləri dividendlərin ödəmə mənbəyində vergidən azad olunmasını nəzərdə tutan müddəa daxil edilib.

Eyni zamanda mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir, mənfəət, əmlak, torpaq vergisi və ƏDV üzrə güzəştlər nəzərdə tutulub. Kiçik və orta biznes (KOB) klasterinə daxil olan şirkətlər KOB reyestrində qeydiyyata alındıqları andan etibarən 7 il müddətinə mənfəət, torpaq və əlavə dəyər vergisindən azad edilirlər. KOB klasterinə daxil olan şirkətlər tərəfindən istehsal və emal məqsədilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə ƏDV-dən azad edilir. Həmçinin, kiçik və orta biznes klasterinin iştirakçısı olan sahibkarlıq subyektləri tərəfindən KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi 7 il müddətinə gəlir (mənfəət) vergisindən azad edilir.

Mikro-sahibkarlıq subyektləri üçün nəzərdə tutulan güzəştlərdən biri sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir və mənfəətin 75 faizinin vergidən azad edilməsidir. Bundan əlavə mikro-sahibkarlıq subyekti olan fərdi sahibkarlar və hüquqi şəxslər əmlak vergisindən azad edilirlər. Həmçinin mikro və kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan startapların startap fəaliyyəti üçün şəhadətnamə aldıqları andan etibarən 3 il müddətinə gəlir və mənfəət vergisindən azad edilirlər.

Tədbirdə "Təbəssüm" MMC-nin rəhbəri Akif Əliyev, "ERA" firmasının direktoru Səxavət Zeynalov, fərdi sahibkarlardan Azad Məlikov, Ramiz Qafarov Vergi Məcəlləsində edilən dəyişikliklərin sahibkarlar tərəfindən razılıqla qarşılandığını, bunun azad sahibkarlığın inkişafına stimul verəcəyini vurğulayaraq keçirilən maarifləndirici tədbirə görə 6 saylı Ərazi Vergilər İdarəsinin kollektivinə minnətdarlıqlarını bildirmişlər.

Tədbirdə vergi ödəyicilərini maraqlandıran suallara aydınlıq gətirilmişdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

## DÜNYA BUGÜN
### FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

### ❑ ÇİN VƏ TÜRKİYƏ ARASINDA DİPLOMATİK QALMAQAL



"Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsinin guya uyğurlar üçün həbs düşərgələrinin olmasına görə bəyanatı xoşagəlməzdir. Biz bununla bağlı artıq Türkiyə tərəfinə təqdimat vermişik". "Sputnik" informasiya agentliyinin "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bunu Çinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Xua Çunin bildirib.

Eyni zamanda, Çin XİN-in rəsmi nümayəndəsi, Türkiyə XİN-in məşhur uyğur şairi Abdurrəhim Heyitanın ölümünə dair bəyanatın həqiqətə uyğun olmadığını bildirərək, onun sağ olduğunu qeyd edib.

Verilən xəbərə görə, bin neçə gün öncə Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Hami Aksoy Çini etnik uyğurların hüquqlarına hörmət etməyə və onların məcburi saxlanılması üçün yaradılan düşərgələri bağlamağa çağırıb. Hami Aksoy XXI əsrdə yenidən "həbs düşərgələrinin" meydana gəlməsini bəşəriyyət üçün utancverici fakt adlandırıb.

BMT-nin İrqi Ayrı-Seçkiliyin Aradan Qaldırılması üzrə Komitəsinin ötən il yaydığı məlumata görə, Çində 2 milyon uyğur türkü, eləcə də müsəlman azlıqları etnik və ideoloji fərqliliklərinə görə siyasi həbs düşərgələrində saxlanılır.

Bununla yanaşı, qeyd olunur ki, Çindəki uyğur və müsəlmanlara sırf etnik-ideoloji kimliklərinə görə "dövlətin düşməni" kimi rəftar olunur, onların dövlət tərəfindən hüquqi mühafizəsi təşkil edilmir və dini azadlıq verilmir.

Komitənin üzvü Qay Makduqal məruzəsində qeyd edib ki, Misir və Türkiyə kimi ölkələrdə təhsil alıb, Çinə dönən 100-dən çox uyğur tələbə dərhal həbs olunub və çoxu da həbsxanada nəzarət altında saxlanılarkən ölüb.

### ❑ YAPONİYANIN KONSTİTUSİYASI DƏYİŞDİRİLƏ BİLƏR



Yaponiyada hakimiyyətdə olan Liberal Demokrat Partiyası (LDP) yeni ildə ölkənin İkinci Dünya müharibəsindən sonra qəbul etdiyi konstitusiyanı dəyişdirmək üçün addım atacağını açıqlayıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Partiyanın bugünlərdə keçirilən illik konqresində qəbul edilən strategiya sənədində 1947-ci il konstitusiyasının 9-cu maddəsində yazılan "Yaponiya beynəlxalq münaqişələrin həllində hücum etməmə anlayışına sadiq qalacaq" və "Yaponiya ölkə sərhədlərini müdafiə etmək məqsədindən başqa güc tətbiq etməyəcək" ifadələrinin dəyişdirilməsinin tərəfdarıdır.

Strategiya sənədində deyilir: "Konstitusiyanın müasir şərtlərə tabe olacaq şəkildə dəyişdirilməsinə başlamaq və ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün lazımlı addımları atmaqda qərarlıyıq".

Yaponiyanın baş naziri və Liberal Demokrat Partiyasının sədri Şinzo Abe də konqresdə çıxış edərək deyib: "Nəhayət, bu partiyanı yaratdığımızdan bu yana ən böyük arzumuz olan konstitusional islahata başlamağın vaxtı çatıb".

Eyni zamanda, bildirilir ki, dəyişikliyin mahiyyəti və tarixi ilə bağlı detallar strategiya sənədində yoxdur. Baş nazir Şinzo Abe də çıxışında bu barədə məlumat verməyib.

Yaponiyanın İkinci Dünya müharibəsindən sonra qəbul etdiyi 1947-ci il konstitusiyasının 9-cu maddəsinə görə, yapon xalqı bir ölkənin suveren hüququ kimi beynəlxalq məsələlərin həllində güc istifadə etməyi və güc istifadə etməklə təhdid etməyi rədd edir, bu istiqamətdə quru, hava və dəniz qüvvələrinin tətbiq edilməyəcəyi barədə öhdəlik götürür.

### ❑ BVF PAKİSTANA MALİYYƏ YARDIMINA HAZIRDIR



Beynəlxalq Valyuta Fondu (BVF) Pakistana lazımi maliyyə yardımı göstərməyə hazırdır. "Trend" agentliyinin məlumatına görə, bu barədə BVF-nin rəhbəri Kristin Laqard Pakistanın baş naziri İmran Xan ilə Dubayda keçirilən görüşü zamanı bildirib.

Kristin Laqard deyib: "Mən təsdiq etdim ki, Beynəlxalq Valyuta Fondu Pakistana dəstək göstərməyə hazırdır. Mən həmçinin vurğuladım ki, qətiyyətli siyasət və iqtisadi islahatlar paketi Pakistana öz iqtisadiyyatını bərpa etməyə və daha inamlı artım üçün təməl qoymağa kömək edəcək".

Eyni zamanda, BVF rəhbəri qeyd edib ki, baş nazir İmran Xan ilə konstruktiv görüş baş tutub. "Görüş zamanı biz iqtisadiyyatda yaxın zamanlarda baş verən hadisələri və Pakistan üçün Beynəlxalq Valyuta Fondunun dəstək proqramının perspektivlərini müzakirə etdik", - deyə Kristin Laqard vurğulayıb.

Qeyd edək ki, Pakistan hakimiyyəti BVF-dən 6-7 milyard dollar dəyərində kredit istəməyi planlaşdırır. Bu halda BVF rəsmi İslamabaddan büdcə kəsirinin azaldılması və vergi sisteminin genişləndirilməsini tələb edə bilər.

Xatırladaq ki, Pakistan 1980-ci ildən BVF-yə dəfələrlə maliyyə yardımı üçün müraciət edib. Sonuncu dəfə isə 2013-cü ildə müraciət edilib və BVF Pakistana 6,6 milyard dollarlıq kredit ayırıb.

### ❑ VENESUELA XİN RƏHBƏRİ AVROPA İTTİFAQINI TƏNQİD EDİB



Venesuela Xarici İşlər naziri Xorxe Arreaza ölkəsindəki böhranın həlli üçün Avropa İttifaqının prezident seçkiləri keçirilməsi ilə bağlı çağırışına reaksiya verib. "Avropa İttifaqı Amerika Birləşmiş Ştatlarının yürütdüyü siyasətin arxasına düşməməlidir", - deyə XİN başçısı bildirib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Venesuela mətbuatında çıxan xəbərlərə əsasən, X.Arreaza özünü müvəqqəti prezident elan edən Xuan Quaydonu tanıyan ABŞ və Aİ ölkələrinin Venesuelada baş verən dərman və ərzaq böhranına görə məsuliyyət daşıdığını vurğulayıb.

Avropa İttifaqının Venesueladakı böhranla əlaqədar adekvat mövqe nümayiş etdirmədiyini qeyd edən Xorxe Arreaza bu səbəblə Aİ-nin Venesueladakı böhranın həlli ilə bağlı rolunu qəbul etməyin olduqca çətin olacağına diqqəti çəkib.

XİN başçısı yüksək inflyasiya, ərzaq və dərman çatışmazlığına xarici ölkələrin blokadasının səbəb olduğunu vurğulayaraq bildirib ki, bu problemin 25 faizinin iqtidar, 75 faizinin isə blokada ilə bağlı yarandığını ifadə edib.

Xatırladaq ki, Venesuela parlamentinin sədri Xuan Quaydo müxalifətçilərin aksiyasında özünü "müvəqqəti prezident" elan edib və başda ABŞ olmaqla qitənin bir sıra ölkələri tərəfindən tanınıb. Son olaraq Avropa Parlamenti də eyni istiqamətdə addım atıb. Meksika, Türkiyə, Rusiya, İran, Kuba, Çin və Boliviya isə Venesuela prezidenti Nikolas Maduro hökumətinə dəstəklərini bildiriblər. ■

*DTX:*

# Hədə-qorxu yolu ilə vətəndaşlardan pul almaqda şübhəli bilinən baş redaktor cinayət məsuliyyətinə cəlb edilib

**Ötən illər ərzində ayrı-ayrı şəxslər barəsində böhtan xarakterli və rüsvayedici məlumatları mütəmadi olaraq mətbu orqanlarda dərc etdirib dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olan müraciətlər Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) araşdırılıb, ölkə ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən şəxslərin silsilə hüquqazidd fəaliyyətlərinin qarşısının alınması üçün qanunla müəyyən olunan tədbirlər görülüb. Bununla belə, bəzi informasiya saytlarında qeyd olunan tədbirlərin mahiyyətini təhrif edən məlumatlara rast gəlinir.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, "Realliq.info" informasiya saytının baş redaktoru, Azərbaycan Respublikasının vətəndaşı Rəhimov İkram Rafiq oğlunun hədə-qorxu ilə pul tələb etdiyi barədə ayrı-ayrı şəxslərin şikayətləri Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb. Məhkəmə qərarı əsasında aparılan əməliyyat tədbirləri ilə onun müvafiq əməlləri qeydə alınıb. O, hədə-qorxu ilə tələb etmə cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq, barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib.

Davam edən istintaqla şübhəli bilindiyi cinayətlərə görə İkram Rəhimova elan edilən ittihama əsasən, o, 2017-ci ilin sentyabrında zərərçəkmiş Elxan Dadaşovdan mətbuatda sahibkarlıq fəaliyyəti zamanı qanunsuzluqlara yol verdiyinə dair məlumatlar yayacağı hədəsi ilə pul vəsaiti tələb edərək alıb.

İttihama əsasən, İkram Rəhimov zərərçəkmiş Zakir Hüseynovdan barəsində mətbuatda şəxsi və işgüzar nüfuzuna xələl gətirən rüsvayedici məlumatlar yayacağı hədəsi ilə 2016-2018-ci illər ərzində müxtəlif vaxtlarda mütəmadi olaraq pul tələb edərək alıb.

Bundan başqa, 2017-ci ilin sentyabrında İkram Rəhimov zərərçəkmiş Rafiq Ədilovdan davamlı olaraq mətbuatda rüsvayedici məlumatlar yayacağı hədəsi ilə pul tələb edərək alıb.

Daha sonra İkram Rəhimov 2017-ci ilin dekabrında fərdi sahibkar Cabir Cəfərovdan fəaliyyətində qanunsuzluqlara yol verdiyi barədə mətbuatda məlumatlar yayacağı hədəsi ilə pul vəsaiti tələb edib. O, bu yolla həmin şəxsdən də pul almağa nail olub.

İkram Rəhimov 2018-ci ildə zərərçəkmiş Azər Mirzəyevdən guya müxtəlif qanunsuz əməllərə yol verdiyinə dair mətbuatda məlumatlar yayacağı hədəsi ilə müxtəlif tarixlərdə pul tələb edərək alıb.

İkram Rəhimovun əməllərindən daxil olan şikayətlərin obyektiv araşdırılması təmin ediləcək.

**AZƏRTAC**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti 24 oktyabr 2018-ci il tarixli elana əsasən 07 dekabr 2018-ci il tarixdə Lot 1 (Dərman preparatları və sarğı materialları), Lot 2 (ABBOTT tam avtomatlaşdırılmış biokimyəvi analizatorlar), Lot 3 (Rentgen filmləri və fotolaboratoriyalar üçün reaktivlər, cərrahiyyə üçün tikiş materialları, stomatologiya üçün məsrəfi tibbi əmlak), Lot 4 (Zərdab və vaksinlər) üzrə maddi vəsaitlərin satınalınmasına dair keçirilmiş açıq tenderin nəticələrini qiymətləndirmiş və tender təklifləri aksept edilmişdir. Nəticədə tender proseduruna əsasən şirkətlərlə satınalma müqavilələri imzalanmışdır.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

## Satınalan təşkilat: GƏNCƏ GƏNCLƏR EVİ SXM

## BİLDİRİŞ

GƏNCƏ GƏNCLƏR EVİ SXM Tədbirlərin keçirilməsinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 055-481-38-06 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 20 fevral 2019-cu il saat 11:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Gəncə şəhəri, 28 May küçəsi 34.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Neft və Sənaye Universitetində 12 fevral 2019-cu il tarixində "Digər maşın və avadanlıqlar" maddəsi ilə keçirilmiş açıq tenderdə tender təkliflərinin yetərsay olmadığı üçün açıq tender ləğv edilmişdir.

**Tender Komissiyası.**

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**

*Paranitin satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən ələvə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 21-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**

*Elektrik lampalarının satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən ələvə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 20-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**

*Məişət avadanlıqlarının satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən ələvə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 20-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC**

*Mətbəxt ləvazimatlarının satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən ələvə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 21-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

TƏKRAR

**“AZERGOLD” QSC**

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Çovdar Filiz Emalı sahəsindən hasilat zamanı əmələ gələn təhlükəli tullantılarının daşınması və utilizasiya xidmətlərinin satın alınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini “AzerGold” QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, tel.: 012-505-02-02 (dax.1108), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 250 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Hesab: AZ85PAHA38020AZNHC0190068658
VÖEN: 1403467421
Bank: “PAŞA Bank” ASC
Kodu: 505141
VÖEN: 1700767721
M/H: AZ82NABZ01350100000000071944
S.W.İ.F.T: PAHAAZ22

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*

*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 05 mart 2019-cu il, saat 15.00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) 14 mart 2019-cu il, saat 15.00-a qədər “AzerGold” QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı 15 mart 2019-cu il saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**“AzerGold” QSC, Tender Komissiyası.**

**AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT MALLARININ SATINALINMASI MƏQSƏDİLƏ**

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) Lot üzrə keçirilir:**

**LOT-1.** Ali Məhkəməyə dəftərxana və təsərrüfat mallarının satınalınması

Malların təchiz olunma müddəti - 2019-cu il ərzində

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına və texniki göstəricilərə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yusif Səfərov 14, 1193-cü məhəllə, Azərbaycan Respublikası Ali Məhkəməsinin Maliyyə-təsərrüfat şöbəsindən (Əlaqələndirici şəxs: Rzayeva Günel Əli qızı, telefon: 496-58-12) ala bilərlər.

**LOT-1. 240 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Bank adı: Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Xəzinədarlıq Agentliyinin 4 saylı Xəzinə İdarəsi*
*Kodu: 210005*
*VÖEN: 2001462101*
*Müxbir hesab AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Azərbaycan Respublikası Ali Məhkəməsi*
*Hesab № AZ85CTRE00000000000003027901*
*VÖEN: 1300189391*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması barədə vergi orqanı tərəfindən verilmiş arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*

*-Digər sənədlər: İddiaçının ixtisasına dair məlumatlar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 28.03.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 05.04.2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Yusif Səfərov 14, 1193-cü məhəllə, Azərbaycan Respublikası Ali Məhkəməsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Azərbaycan Respublikası Ali Məhkəməsində 08.04.2019-cu il tarixdə saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

**Ağstafa Regional Mədəniyyət İdarəsi**

## KOTİROVKA SORĞUSU ELAN EDİR

1. Dəftərxana və təsərrüfat xərcləri.
2. Mətbəə xərcləri.
3. İdarənin digər xərcləri.
4. Kommunal və kommunikasiya xidmətləri ilə bağlı xərclər.
5. Yumşaq inventar.
6. Digər masın və avadanlıq.
7. Sair xərclər.

**Tender Komissiyası.**

**BİLDİRİŞ**

Abseron RİH-in “Respublika” qəzetində 7.02.2019-cu il tarixli elanının ləğv olunduğu bildirilir.

**Tender Komissiyası.**

Murtuzova Ülviyyə Höcətulla qızına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Zövlə kənd sakini Tağıyev Sərraf Beytulla oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 332; KOD 80220028) itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhəri Dədə Qorqud küçəsi bina 7a mənzil 11 ünvanda yaşayan Məcnuni Məktubə Nürəddin qızının adına olan 10.08.1992-ci ildə verilən 6871 N-li Qeydiyyat Vərəqəsi itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu Əcəxur kənd sakini Dövlətov Elşad Sahib oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN:201, kod: 30104018) itdiyi üçün etibarsız sayılır..

Xaçmaz rayonu Həsənqala kənd sakini Nəbiyev Rafiq Sədrəddin oğlunun adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-314A; kod-30213078) itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər Kəpəz rayonu Hərbi Şəhərcik 38-xətt 1, 5 saylı mənzildə yaşayan Ələsgərova Gülzar Rüstəm qızının adına olan 28.04.1994-cü il tarixli 11315 saylı Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

“REYHAN Müəssisəsi” MMC-yə məxsus № 072313 Lisenziya, Lisenziyaya əlavə və 2 saylı əlavə itdiyi üçün etibarsız sayılır.

**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi dəftərxana ləvazimatlarının kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlananlar (012) 525 01 23 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Əlaqələndirici şəxs:** *Elçin Dadaşov*

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 20 fevral 2019-cu il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nobel prospekti 25E, Bakı Ağ Şəhər ofis binası.*

**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi İKT avadanlıqlarının kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlananlar (012) 525 01 23 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Əlaqələndirici şəxs:** *Elçin Dadaşov*

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 20 fevral 2019-cu il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nobel prospekti 25E, Bakı Ağ Şəhər ofis binası.*

**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi SERP proqram təminatının modullarına illik texniki dəstək xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlananlar (012) 525 01 23 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Əlaqələndirici şəxs:** *Elçin Dadaşov*

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 20 fevral 2019-cu il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nobel prospekti 25E, Bakı Ağ Şəhər ofis binası.*

**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi ofis inventarlarının kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlananlar (012) 525 01 23 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Əlaqələndirici şəxs:** *Elçin Dadaşov*

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 20 fevral 2019-cu il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nobel prospekti 25E, Bakı Ağ Şəhər ofis binası.*

**ALLAH RƏHMƏT ELƏSİN**

**“Respublika” qəzetinin baş redaktoru, professor Teymur Əhmədov və redaksiyanın kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova, qardaşı**
**ZAKİR MURADOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Astara şəhər 3 saylı körpələr evi-uşaq bağçasının müdiri Mirvari Tarıverdiyeva və bağçanın kollektivi iş yoldaşları**
**ELNURƏ MƏCİDOVANIN**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verirlər.**

**BDU-nun Tətbiqi-Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru akademik Fikrət Əliyev və institutun kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova, qardaşı**
**ZAKİR MURADOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Lətifə Məmmədova ailəsi ilə birlikdə Yasamal rayon Heydər Əliyev Mərkəzinin direktoru Naminə Ömərovaya, əzizi**
**DİLŞAD xanımın**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova, qardaşı**
**ZAKİR MURADOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərova, bacısı**
**PƏRİXANIM MƏMMƏDOVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**“ARB 24” telekanalının kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova, qardaşı**
**ZAKİR MURADOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Rəhim Məmmədov, Bayram Səfərov, Rövşən Ağayev Həsən, Hüseyn və Ağabəy Əsgərovlara, bacıları**
**PƏRİXANIM MƏMMƏDOVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov və professor-müəllim heyəti Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova, qardaşı**
**ZAKİR MURADOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyi**

## AÇIQ TENDER ELAN EDİR

**Tender 4 (dörd) lot üzrə keçirilir:**

**Lot-1.** Təsərrüfat mallarının satınalınması
**Lot-2.** Ehtiyat hissələrinin satınalınması
**Lot-3.** Abadlıq işlərinin görülməsi
**Lot-4.** Mənzil fondunun təmiri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, M.Ə.Rəsulzadə qəsəbəsi, Ə.Məmmədov küç. 10 ünvanından ala bilərlər.

**İştirak haqqı hər lot üzrə 150.00 manatdır.**

*“Kapital Bank”ın Binəqədi filialı*
*Kod: 200156*
*VÖEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*AİİBAZ2X*
*Təşkilat: Binəqədi rayon MKTB*
*H/H: AZ45AİİB33010019441500223115*
*VÖEN: 1000304361*

**Ünvan: Bakı şəhəri, M.Ə.Rəsulzadə qəsəbəsi, Ə.Məmmədov küç. 10**
**Tel.: 447-21-32**
**Əlaqələndirici şəxs: Əliyev Vəli**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*

*—tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, işlərin yerinə yetirilməsi üçün analoji işlərdə təcrübəsi;*

*—iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 04 aprel 2019-cu il saat 17:00-dək təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Təkliflər 05 aprel 2019-cu il saat 12:00-da qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

**Ağstafa Regional Mədəniyyət İdarəsi**

## AÇIQ TENDER ELAN EDİR

**Tender 4 (dörd) lot üzrə keçirilir:**

**Lot-1.** Cari təmir.
**Lot-2.** Bərk inventar.
**Lot-3.** Avadanlığın alınması.
**Lot-4.** Əsaslı təmir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər lot üçün 100 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu (Ağstafa s.,H.Arif küç.-07) ünvanından ala bilərlər.

İştirak haqqı - 100 m.
Əlaqələndirici şəxs: Məstanov R.
Tel.: (mob) 050-397-15-99
(022) 22-5-39-61
Ağstafa Regional Mədəniyyət İdarəsi.
VÖEN: 3600631701
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət:*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifi dəyərinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri:*

*—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender prosedurunda iştirak üçün “Dövlət satınalmaları haqqında” Qanunun 6-cı maddəsinin tələblərinə uyğun olaraq müvafiq sahədə peşəkarlığı, təcrübəsi, texniki və maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı və sair barədə sənədlər təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 mart 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 4 aprel 2019-cu il saat 18:00-a qədər yuxarıdakı ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 5 aprel 2019-cu il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

**Baş redaktor Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi Hümmət MUSAYEV

● Çapa imzalanmışdır 12.02.2019